# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Sosial siyasətdə ədalətli yanaşma



2

№ 144 (7312)

14 avqust 2025-ci il.
Qiymәti 60 qәpik

# Vaşinqton görüşü regionun siyasi mənzərəsini dəyişir



3

# Növbəti və son mərhələ

*Tehranla Moskvanın regionla bağlı yeni planları üzə çıxdı*



8

## İsveçrə parlamenti ermənipərəst deputatların Azərbaycan əleyhinə qətnamə layihəsini rədd edib



4

## Teatr və konsert: hansına üstünlük veririk və nəyə görə?..



12

## İkinci əl geyimləri sağlamlıq üçün dəhşət saçır!



6

## "Zəngəzur dəhlizi (Tramp yolu) regionun yeni geosiyasi mərhələsini başlayır"



15

## Salam verdim, amma...



5

# Sosial siyasətdə ədalətli yanaşma

## 500-ə yaxın qazi 610-dan çox son nəsil yüksək texnologiyalı protezlə təmin edilib

Ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, şəhid ailələrinə də dövlətimiz tərəfindən sosial qayğılarının həll edilməsi üçün ardıcıl olaraq zəruri tədbirlər görülür. Onların həyat şəraitinin yaxşılaşmasına, ictimai hüquqlarının bərpa olunmasına şərait yaradılıb. Bu dövlət başçısının siyasətinin əsasında ölkənin hər bir vətəndaşına münasibətdə ədalət və humanizm prinsipləri dayandığını bir daha təsdiqləyir. Ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam edir. Şəhid ailələrinə və müharibə əlillərinə ayrılan diqqətin nəticəsidir ki, bu gün onların sosial təminatı istiqamətində kifayət qədər tədbirlər reallaşıb. Vətən müharibəsindən sonra Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin reabilitasiya müəssisələrində 3600-dən çox qazi reabilitasiya xidmətləri ilə təmin edilib. Son illər reabilitasiya mərkəzlərinin müasir tələblərə uyğun qurulması və şəbəkəsinin genişləndirilməsi, yeni avadanlıqlarla təchizatı istiqamətində mühüm işlər aparılıb.



Bu müəssisələrdə xidmət keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəldilməsinə, xidmət göstərilənlərin illik sayının 10 dəfədən çox, əlilliyi olan şəxslərə verilən reabilitasiya vasitələrinin illik sayının 3 dəfə artırılmasına nail olunub. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin hər biri fərdi reabilitasiya proqramı əsasında mütəmadi olaraq bərpa-müalicə kursları keçib, effektiv fizioterapevtik prosedurlara cəlb ediliblər. Bu kurslar onların səhhətində yaxşılaşmaya, reabilitasiya potensiallarının reallaşdırılması istiqamətində mühüm irəliləyişə imkan yaradıb.





Vətən müharibəsindən sonra 2350-dək qazi isə 79,4 min reabilitasiya vasitəsi, o cümlədən 500-ə yaxın qazi 610-dan çox son nəsil yüksək texnologiyalı protezlə təmin edilib. Görülən işlərini davamı olaraq yeni sosial dəstək proqramı həyata keçirilir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm tarixi Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonra da şəhid ailələri, müharibə əlilləri və iştirakçıları ilə bağlı icra olunan geniş miqyaslı sosial dəstək proqramları həyata keçirilib.

### 106 MİN ŞƏXSƏ 119 MİN AYLIQ SOSİAL ÖDƏNİŞ

Şəhid ailələri və qazilərə özünüməşğulluq proqramı çərçivəsində müvafiq dəstək tədbirlərinin göstərilməsi də davam edir. Qeyd edək ki, şəhid ailələrinə diqqət və qayğı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun mühüm istiqamətlərindən biridir. Bütün görülən tədbirlər respublikamızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə yenilməz rəşadət və misilsiz vətənpərvərlik nümunəsi göstərən vətən oğullarımıza və onların ailələrində dövlətin qayğısı və həssas yanaşmasının göstəricisidir.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun tarixi Zəfər qazandığı Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının göstərişi əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı həyata keçirilən genişmiqyaslı sosial dəstək paketinin icrası uğurla davam etdirilir. Sosial dəstək paketi üzrə postmüharibə dövründə şəhid ailələri üzvləri və müharibə veteranları olan 106 min şəxsə 119 min aylıq sosial ödəniş, 25 min şəxsə birdəfəlik ödəmə təyin olunub. Şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib. Statistik göstəricilər əsasında deyə bilərik ki, şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 27 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 12,9 min şəxs özünüməşğulluq proqramına cəlb olunub. Qeyd olunan sosial dəstək paketi ümumilikdə 131 min şəxsi əhatə edərək, onlara dəstək yönümlü 391 min xidmət göstərilib.

### ÜÇÜNCÜ "YAŞAT" YAY MƏKTƏBİ

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, 44 günlük Vətən Müharibəsinin əldə etdiyi bu böyük Qələbənin əsas qəhrəmanı Azərbaycan əsgəri və zabitidir. Müharibə Zəfərlə başa çatandan sonra Ali Baş Komandanımızın ilk növbədə yaralı hərbçilərimizlə görüşməsi də onlara yüksək hörmət və ehtiramın, qayğının nümunəsidir. Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" Fondunun yaradılması, Fond tərəfindən qısa müddətdə ciddi işlərin görülməsinə başlanılması nəticəsində davamlı olaraq müharibə əlilləri və şəhid ailələrinin, o cümlədən müharibə veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilib. Hazırda "YAŞAT" Fondunun təşkilatçılığı ilə Birləşmiş Krallığın paytaxtı Londonda üçüncü "YAŞAT" yay məktəbi davam edir. Əsas məqsəd şəhid övladlarının dünyagörüşünü, bilik və bacarıqlarını artırmaq, mədəniyyət mübadiləsində aktiv iştiraklarını təmin etmək, vaxtlarını səmərəli keçirmələrinə, yeni tanışlıqlar və dostluqlar əldə etmələrinə dəstək olmaqdır. Yay məktəbi London Universitet Kollecində keçirilir və ilk növbədə, iştirakçılar ingilis dili biliyinin ölçülməsi məqsədilə səviyyə imtahanında iştirak ediblər. Daha sonra onlar hər gün 3 saatlıq ingilis dili dərslərinə qatılıblar.

Tədrislə yanaşı, proqram çərçivəsində zəngin ekskursiya proqramı da təşkil olunur. İştirakçıların ekskursiyası Londonun rəmzi sayılan "Big Ben"i ziyarətlə başlayıb Vestminster abbatlığı və sarayı ilə davam edib. Ardınca iştirakçılar Müqəddəs Pavel kafedralı və dünyanın ən çox ziyarət edilən, milli-beynəlxalq modern sənət əsərlərinin sərgiləndiyi Teyt Modern Muzeyində olublar. Temza çayı üzərində tikilmiş ən yeni körpü olan Millenium və tarixi Tauer körpüsü, London qalası və Madam Tüsso Muzeyi də onların marağına səbəb olub.

Xatırladaq ki, yay məktəbinin iştirakçıları ölkəmizdə 9-cu sinif üzrə buraxılış imtahanında ən uğurlu nəticə əldə etmiş 10 şəhid övladını əhatə edir.

### "HƏR BİR ŞƏHİDİN HƏYATI TƏKRAROLUNMAZDIR"

Bu qəbildən olan vətəndaşlarımızın sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə bu sahədə müxtəlif böyük maliyyə tutumlu proqramlar həyata keçirilir. Dövlət başçısı çıxışlarının birində qeyd etdiyi kimi, "Dövlət öz üzərinə nə düşürsə etməlidir və edəcək". Ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam edir. Prezident İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Hər bir şəhidin həyatı təkrarolunmazdır, hər bir şəhidin həlak olması onun yaxınları, qohumları üçün faciədir, böyük bir dərddir. Müharibə dövründə Azərbaycan hərbçiləri həm peşəkarlıq, həm rəşadət, cəsarət, qəhrəmanlıq, eyni zamanda, fədakarlıq göstərmişlər. Şəhidlərimizin əziz xatirəsi hər birimiz üçün müqəddəsdir".

Şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzil və fərdi evlə təminatı tədbirləri davam edir. Prezident İlham Əliyev "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" 2021-ci il 25 yanvar tarixli nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə məlum Sərəncamına əsasən, 2014-cü il yanvarın 1-dən 2023-cü il yanvarın 1-dək yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin, habelə uçota alınma tarixindən asılı olmayaraq, Çernobıl AES-də qəzanın ləğvi (o cümlədən hərbi xidmət vəzifələrinin (xidməti vəzifələrin) yerinə yetirilməsi) ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mərhələlərlə mənzil və ya fərdi evlə təmin edilməsi üçün Sərəncamda qeyd edilən 2021-2025-ci illər dövrü 2021-2030-cu illər olaraq müəyyən edilib.

### MƏQSƏDYÖNLÜ, DÜŞÜNÜLMÜŞ VƏ ARDICIL SİYASƏT

Hər il dövlət büdcəsinin tərtibi prosesində dövlət əsaslı vəsait qoyuluşunda (investisiya xərclərində) bununla bağlı vəsait də nəzərdə tutulub. Mühüm sosial proqramlardan biri olan şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı tarixi Zəfərimizlə başa çatan Vətən müharibəsindən sonra qeyd etdiyimiz kimi, 5 dəfə genişlənib. onlara 6,8 min mənzil və fərdi ev verilib. Ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, şəhid ailələrinə dövlətimiz tərəfindən sosial qayğılarının həll edilməsi üçün ardıcıl olaraq zəruri tədbirlər görülür. Ölkəmizdə şəhidlərə və onların ailələrinə, əlillərə olan münasibət dövlətimizin məqsədyönlü, düşünülmüş və ardıcıl siyasətidir.

Bütün bunlarla yanaşı, bildiyimiz kimi, cari ilin iyulun 1-dən Azərbaycan Prezidenti İlham Əliyevin məlum Fərmanı ilə müavinət və təqaüdlər artırıldı. Belə ki, şəhid ailəsi, 20 Yanvar şəhidinin ailəsi, Əfqanıstanda həlak olan hərbçilərin ailələri üçün Prezidentin aylıq təqaüdü - 700 manat, müharibə, 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrini yerinə yetirmək və Çernobıl AES-də hərbi xidmət ilə əlaqədar əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdü, orqanizmin funksiyalarından asılı olaraq - 81-100 faiz pozulmasına görə (I dərəcə) - 600 manat; 61-80 faiz pozulmasına görə (II dərəcə) - 500 manat; 31-60 faiz pozulmasına görə (III dərəcə) - 400 manat müəyyən edilib. Vətən Müharibəsi Qəhrəmanlarına Prezidentin aylıq təqaüdü 2200 manata, Azərbaycanın Milli Qəhrəmanlarına Prezidentin aylıq təqaüdü 2000 manata çatdırılıb.

Şəhid ailələrinə diqqət və qayğı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun mühüm istiqamətlərindən biridir. Şəhid ailələrinə və müharibə əlillərinə, milli qəhrəmanlara verilən Prezident təqaüdünün də məbləği ötən dövrdə mütəmadi artırılıb, bu qəbildən olan insanların uşaqlarına aylıq sosial müavinətin verilməsi təmin olunub. Bununla da, şəhid ailələrinin sosial müdafiəsi ildən-ilə yaxşılaşıb, dövlətimizin başçısının bu sahədə həyata keçirdiyi tədbirlər ictimaiyyət tərəfindən hər zaman böyük rəğbət və məmnunluqla qarşılanır.

***Zümrüd BAYRAMOVA***

# Vaşinqton görüşü regionun siyasi mənzərəsini dəyişir



Avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında baş tutan yüksək səviyyəli görüş və imzalanan sənədlər bəzi xarici dövlətləri ciddi narahat edib. Nədən ki, onlar daim bölgədə müharibələrin, münaqişələrin olmasını arzu edib və bunun üçün müxtəlif təxribatçı qüvvələrə siyasi, maliyyə yardımları göstəriblər. Əlaltılarının verilən tapşırıqları yerinə yetirə bilmədiyini gördükdə özləri hay-küy qaldırıb, iç üzlərini nümayiş etdiriblər. Vaşinqton görüşünün keçirildiyi ərəfədə Rusiyanın Ukraynanın Odessa şəhərində yerləşən SOCAR-a məxsus neft terminalını dronlarla vurması rəsmi Moskvanın Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh razılaşmasından ciddi narahat olduğunu göstərir. İyrənc vasitəyə al atması çox ağır xəstəliyə yoluxduğunu bir daha nümayiş etdirdi. Neft terminalını hədəf seçməklə sülhə qarşı olduğunu da göstərdi. Qonşuluğumuzda yerləşən fars -molla rejimi də Rusiyadan heç nə ilə geri qalmayan mövqe sərgilədi. Əgər Rusiya neft terminalımızı hədəf seçdisə fars-molla rejimi Zəngəzur dəhlizinin açılmasına imkan verməyəcəklərini bəyan etdi. Baş mollanın sözçüsü rolunda çıxış edən keçmiş xarici işlər naziri Əli Əkbər Vilayəti bəyan etdi ki, onlar Zəngəzur dəhlizinin reallaşmaması üçün ya Rusiya ilə, ya da Rusiyasız mübarizə aparacaqlar.

Onun sayıqlamasına görə, guya Zəngəzur dəhlizi ticarət marşrutu deyil, İrana (fars-molla rejimi nəzərdə tutulur-İ.Ə.) və digər qonşu ölkələrə qarşı hazırlanan ”siyasi qəsd planıdır”. Əli Əkbər Vilayəti bir qədər də dərinə burnunu soxaraq sərsəm fikirlər səsləndirib. Bildirib ki, Zəngəzur dəhlizi Ermənistanın parçalanmasına gətirib çıxaracaq. Birincisi, bu məxluq anlamalıdır ki, ”Tramp marşrutu” (Zəngəzur dəhlizi) necə və hansı formada açılacağını yalnız Azərbaycan, daha sonra isə Ermənistan müəyyənləşdirə bilər. İkincisi, dəhlizin açılması ilə Ermənistanın parçalanacağını iddia etmək, xəstə təfəkkürün məhsulu ola bilər. Çünki əgər Azərbaycan tarixi torpaqlarına sahib olmaq istəsəydi, bunu 44 günlük Vətən Müharibəsi dövründə həyata keçirib, istədiyinə nail olardı. Bu zaman heç bir qüvvə Azərbaycana mane ola bilməzdi. Lakin Azərbaycan beynəlxalq hüquqa hörmət edərək Ermənistanın BMT tərəfindən tanınan ərazilərindəki Qərbi Azərbaycanı azad etmədi. Buna görə dünyanın əksər tanınmış siyasətçiləri, politoloqları, eləcə də erməni lobbi təşkilat rəhbərləri Azərbaycana minnətdarlıq edən fikirlər səsləndiriblər. Bununla yanaşı, Vaşinqtonda baş tutan yüksək səviyyəli görüşdə və imzalanan Birgə Bəyannamədə ”Tramp marşrutu”nun (Zəngəzur dəhlizi) Ermənistanın suverenliyinə xələl gətirməyəcəyi qeyd olunub. Bundan sonra fars-molla rejiminin şivən qoparması yalnız və yalnız onların ağır və üzücü xəstəliyə mübtəla olduqlarının göstəricisi sayıla bilər.

## İsrail fars-molla rejiminin axırına çıxacaq

Müsbət haldır ki, prezident Pezeşkian baş molladan və onun ətrafında olan məxluqlardan fərli olaraq daha praqmativ, daha ağıllı və sağlam siyasət yürüdür. Təbii ki, bu cür sağlam mövqeyinə görə də, Vilayəti kimi danışanda inilti səsi çıxaranlara tərəfindən ittihamlara, hətta təhqirlərə məruz qalır. Buna baxmayaq Məsud Pezeşkian siyasi mövqeyini dəyişməyir. Pezeşkian jurnalistlərə açıqlamasında bildirib ki, o Zəngəzur dəhlizinin əleyhinə deyil. Onun sözlərinə görə, ”Tramp marşrutu”nun (Zəngəzur dəhlizi) açılması prosesində onların maraqları nəzərə alınıb: ”Zəngəzur dəhlizi məsələsində bizim istəklərimiz yerinə yetirilib. Bu dəhliz mövcud sərhədləri qoruyur. Yol sadəcə nəqliyyat əlaqəsini təmin edir. İranın Avropaya və Şimala tranzitinə mane olmur. Yeganə narahatlıq tikintidə yalnız Amerika Birləşmiş Ştatları və Ermənistana məxsus şirkətlərin iştirak etməsidir”.

Fars-molla rejiminin ərazisindəki mətbuatda dərc olunan məqalələrə və tv-lərdə yayımlanan verilişlərə diqqət edilsə məlum olur ki, M.Pezeşkianın məntiqli və əsaslı mövqeyi baş mollanın kabinetində ciddi narahatlıq yaradıb. Bu səbəbdən də M.Pezeşkianı Azərbaycana qarşı isti, doğma münasibət sərgiləməkdə günahlandırırlar. Qısaca deyilsə, xəyanətdə ittiham edirlər. Məlumatlara görə, fars-molla rejiminin xarici işlər naziri Abbas Araqçı Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla Vaşinqtonda əldə olunan razılaşma ətrafında telefon danışığı aparıb, ölkəsinin narahatlığını bildirdikdən sonra, hədələrə keçib. Bildirib ki, onlar ABŞ-ın dəstəyi ilə dəhlizin açılmasına imkan verməyəcəklər. A.Mirzoyan isə hədələrə cavab vermək iqtidarında olmayıb, sadəcə qeyd edib ki, avqustun 12-dən 20-ə qədər ABŞ-Ermənistan birgə hərbi təlimlərində iştirak edən ABŞ əsgərləri Tehrana tutarlı cavab vermək gücünə malikdirlər. Bundan sonra A.Araqçı susub və telefon danışığını qapayıb.

Söz yox ki, fars-molla rejimi və ya Rusiya Zəngəzur dəhlizinə mane olmağa çalışsalar sərt şəkildə cəzalanacaqlar. Artıq Vaşinqtondan bununla bağlı müəyyən siyasi nöqtələrə siqnallar da göndərilir. ABŞ Dövlət Departamentinin sözçüsü Temmi Bryus fars-molla rejiminin və ya Rusiyanın ”Tramp marşrutu”na (Zəngəzur dəhlizi) mane olmağa çalışsalar, ABŞ-ın hansı addımları atacağı ilə bağlı sualı cavablandırıb: ”Mən müəyyən hərəkətlərlə bağlı nə edə biləcəyimiz və ya edə bilməyəcəyimiz barədə spekulyasiya etmək fikrində deyiləm. Bütün dünya bilir ki, Prezident Trampı ciddi qəbul etmək lazımdır. Bu razılaşma onun üçün vacibdir”.

Temmi Bryus həmçinin əlavə edib ki, Avropa İttifaqı, Fransa, Rusiya və Baydenin dövründə olan ABŞ Ermənistan və Azərbaycan arasında sülhə cəhd ediblər, lakin buna yalnız Tramp nail olub. Dövlət Departamentinin rəsmi nümayəndəsi bəyan edib ki, Azərbaycan və Ermənistan ABŞ ilə iqtisadi sazişlər imzalayıb ki, bu da ABŞ biznesi üçün yeni imkanlar açır.

Bu arada verilən məlumatlara görə, İsrail fars-molla rejimini cəzalandırmaq üçün geniş əməliyyatlara hazırlaşır. İsrailin baş naziri Netanyahunun ”X” sosial şəbəkəsi vasitəsi ilə fars-molla rejiminin ərazisində yaşayan əhaliyə bununla bağlı müraciət etməsi də rəsmi Təl-Əvivin mollaları cəzalandırmaq fikrində ciddi olduğunu göstərir. Hətta siyasi şərhçilər bildirirlər ki, avqustun sonunda İsrail yenidən fars-molla rejimini tamamilə məhv etmək üçün əməliyyatlara başlayacaq. Siyasi şərhçilər o fikri də vurğulayırlar ki, İsrail növbəti əməliyyatlarını fars-molla rejimini tam şəkildə məhv etməyincə dayandırmayacaq. Ola bilsin ki, Avropa və ABŞ qüvvələri də İsrailə hərbi qüvvə baxımından yardımçı olsunlar.

Fars-molla rejimi üzləşə biləcəyi ağır vəziyyəti düşünüb, ondan çıxış yollar axtarmaq əvəzinə Zəngəzur dəhlizinin açılması ilə Ermənistanın parçalana biləciyi qorxusunu dilə gərib, bu barədə xaricdəki və Ermənistandakı erməniləri xəbərdar edir. Halbuki, İsrailin növbəti hücumu ilə nəinki, fars-molla rejiminin parçalanması, hətta əbədi olaraq tarixin zibilliyinə atılması problemi var. O faktdır ki, fars-molla rejimi bütün dövrlərdə ermənilərə hərbi-siyasi dəstəyini nümayiş etdirib. Xüsusilə də Azərbaycanına qarşı siyasətinin həyata keçirilməsində fars molla rejimi və erməni terrorçuları eyni mövqedən çıxış ediblər. Məhz bu kimi birliyin nəticəsi olaraq Azərbaycanın dilbər guşələri işğal edilərək, viran olunub. Talançılıqda və məhvetmə siyasətində də bu iki terror dövləti birgə iştirak ediblər.

## Azərbaycan dünyanın ən sabit və sakit dövlətlərindəndir

Xatırlatmaq lazımdır ki, Şuşa işğal olunanda Azərbaycan Respublikasının Milli Məclisinin sədri, eləcə də prezident səlahiyyətlərini icra edən Yaqub Məmmədov Tehranda idi. Orada Ermənistan prezidenti Ter-Petrosyanla cəbhədə atəşkəsə nail olunması ilə bağlı müqavilə imzalayırdı. Belə məqamda Şuşa işğal olundu. Bu, nə deməkdir? Yəni fars-molla rejimi Yaqub Məmmədovu aldadaraq Tehrana apardı, ermənilər də asanlıqla Şuşanı işğal etdilər. 20 noyabr 1991-ci ildə Qarakənd səmasında Azərbaycanın yüksək dövlət rəsmilərinin olduğu vertolyotun vurulmasında da fars-molla rejiminin əli vardı. Sübut olunub ki, bu hadisəni törədən 17 nəfərdən biri əmmaməli mollaların əməkdaşı olub. Həmin terror aktını törədən şəxslər fars-molla rejiminin nəzarət etdikləri torpaqlara maneəsiz keçib. 30 illik işğal dövründə də molla rejimi işğalçı Ermənistanı bu və ya digər formada dəstəkləyir. Hər gün ermənilər heç bir viza, şərt tələb olunmadan Xudafərin körpüsü vasitəsi ilə fars-molla rejimin ərazilərinə gedib gəlirdilər. Bu, həm də onu göstərir ki, fars-molla rejimi burada Rusiyanın maraqlarını təmsil edirdi. O zaman sərhəd olmadığından fars-molla rejimi Ermənistana silah sursat göndərirdi. Narkotikanın əkilib becərilməsi və onun Asiya və Avropaya daşınmasında da işğal edilən torpaqlar əsas gəlirli sahə hesab edilirdi. Yada salmaq lazımdır ki, torpaqlarımız işğaldan azad edildikdən sonra Xocavənd, Ağdərə və Xocalı istiqamətində yüzlərlə hektar sahələrdə narkotik sahələri aşkarlanmışdır. Şübhəsiz ki, həmin narkotika fars-molla rejimi və Ermənistanın xunta rejimi burgə əkib, becərmişlər.

Vaşinqtonda baş tutan yüksək səviyyəli görüş və imzalanan sənədlər Azərbaycanın mövqeyini dünya siyasətində daha da möhkəmləntdi. Bu da fars-molla rejimini və Rusiyanı, eləcə də digər lazımsız qüvvələri ciddi narahat edib. Həm də onlar Azərbaycanın regionun lider dövlətinə çevrilməsindən də narahat olublar. Onlar bundan da qısqanırlar ki, Azərbaycan sabit, sakit dövlətdir. Azərbaycanda milli birlik, mövcuddur. Xüsusi ilə də 44 günlük Vətən müharibəsində Azərbaycanın 30 il işal altında olmuş torpaqlarını erməni terrorçularından təmizləyib, ərazi bütövlüyünün və suverenliyini təmin etməsi fars-molla rejimini ciddi şəkildə başağrısı yaradıb. Ona görə də əmmaməli mollalar ardıcıl olaraq Azərbaycana qarşı separatçılara xas təxribatçı açıqlamalar verir, fikirlər səsləndirirlər. Ancaq Azərbaycanda tez-tez səslənən el məsəli var: ”İt hürər karvan keçər”.

***İLHAM ƏLİYEV***

# “Bu, həm də Azərbaycan xarici siyasətinin, diplomatiyasının qələbəsidir”



”08.08.2025-ci il ölkəmiz və regionumuz, əminəm dünya üçün də çox bir vacib və tarixi əhəmiyyət kəsb edir. Üçtərəfli görüşü, həm Azərbaycanın, həm Ermənistanın, həm də bütövlükdə Cənubi Qafqazın tarixi, gələcək taleyi baxımından mühüm dönüş nöqtəsi və regionda davamlı və dayanıqlı sülhün təmin olunması istiqamətində olduqca mühüm hadisədir”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Əhməd Abbasbəyli deyib. Əhməd Abbasbəyli sözlərinə belə davam edib: ”Qəbul ediımiş sənədlər özündə tərəflər arasında diplomatik münasibətlərin bərpasını, ərazi bütövlüyünün qarşılıqlı tanınması və hörmət prinsipləri əsasında əməkdaşlığın inkişaf etdirilməsini, həmçinin kommunikasiya xətlərinin açılması, iqtisadi əlaqələrin bərpasını ehtiva edir. Bu həm də Azərbaycan xarici siyasətinin, diplomatiyasının qələbəsidir. Dünən Azərbaycanla təz-



yiq dilində danışmağa çalışanlar, bu gün reallığı qəbul etmək məcburiyyətindədirlər. Artıq informasiya məkanında, dünya mətbu orqanlarında, analitiklərin açıqlamalarında bu görüşlə bağlı pozotiv fikirlər, rəylər yayılır, bu hadisənin regionda davamlı sülhə xidmət etdiyi bildirilir.

Təəssüf ki, bu hadisədən pəriçan olanlar, qarnına ağrı dolanlar da oldu. Hələ, sözüm əsl mənasında tarixi sənədlərin, necə deyərlər, ”mürəkkəbi qurumamış” həm şimaldan, həm də cənubdan, həmin dairələrin maraqlarına və mənəviyyatlarına uyğun olan, qarayaxmalar, təhdidlər səslənməyə başlandı, Nəinki Azərbaycanın, həmçinin regionun maraqlarına, qlobal mənada isə beynəlxalq sülh və təhlükəsizlik prinsiplərinə zidd olan müxtəlif bəyanatlara start verildi. Əslində regionda vəziyyəti gərginləşdirmək, ”bulanlıq suda balıq tutmaq” və ”tökülən qanlar bahasına varlanmaq” istəyən əxlaqsız, insanlıqdanuzaq siyasətçilərin, manipulyasiyaları, siyasi hoqqabazlıqları gözlənilən idi.

Amma, Azərbaycan xainləri, bədxahları yaxşı tanıyır, dövlətimizin uğurlarını və regionda sabitliyi və əmin-amanlığı gözü götürməyənlərə, bu qəbildən olan viruslara, zəhərlərə qarşı, uzun illərin təcrübəsindən qazanılmış immunitetə malikdir. Bu mənada, perspekivdə Ermənistanın özünü necə aparması çox vacibdir və nə qədər tez addımlar atsa, öz xeyrinə olacaq. Əgər Ermənistan siyasi rəhbərliyi daxili və xarici təzyiqlərə tab gətirə bilsə, siyasi əxlaq nümayiş etdirərək, verdiyi sözə və imzasına hörmət etsə, təhdidlərə cavab verməyə cəsarəti çatsa onda bu razılaşma sülh müqaviləsi ilə nəticələnəcək.

Məlumdur ki, ”Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş” layihəsinin paraflanması ilə bağlı müddəa çərçivəsində, Sazişin imzalanması və ratifikasiyasına nail olmaq üçün əlavə tədbirlərin görülməsinə ehtiyac olduğu təsbit edilib. Bu kontekstə, Azərbaycan tərəfi Sazişin imzalanması üçün Ermənistanın Konstitusiyasında dəyişiklik edilərək Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılacağını gözləyir. İnanırıq ki. Ermənistan tərəfi bu məsələni yubatmayacaq, şərtə qeyd-şərtsiz əməl edəcək və ”Sülh müqaviləsi” yekin sənəd kimi imzalanacaq və hər iki dövlət tərəfindən ratifikasiya olunacaq. Əks təqdirdə bu, Ermənistanın, onun siyasi rəhbərliyinin beynəlxalq imicinə, nüfuzuna mənfi təsir edəcək, bu həmçinin ilk növbədə, onun ABŞ-a və şəxsən Prezident Trampa hörmətsizlik olacaq və Ermənistan dövlətinin gələcək taleyini sual altında qoya bilər”.

***Ayşən Vəli***

# Üçtərəfli görüş regionda stabilliyi təmin edə biləcəkmi?

Hər bir ölkənin vətəndaşı üçün sülh və təhlükəsizlik hər zaman prioritetdir. Bəzən uzun illər davam edən münaqişələrin həlli üçün yalnız diplomatik addımlar kifayət edir. 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Tramp arasında keçirilən üçtərəfli görüş, məhz belə bir tarixi an oldu. Bu görüş nəticəsində imzalanan sülh müqaviləsi və açılan Zəngəzur Dəhlizi regionda yeni imkanlar yaratdı. Maraqlıdır, şəhər sakinləri bu tarixi görüş və sülh prosesinə necə baxır, gələcəyə dair ümidləri nədir? SİA bu mövzu ilə bağlı vətəndaşlar arasında sorğu keçirib.



**Şəhər sakini Çingiz İbrahimov:** ”Bu görüş mənim üçün həqiqətən inanılmaz və ürəyimcə oldu. Həmişə bəlkə də bu anın baş verməsini arzulayırdım. Gələcək üçün böyük ümidlərim var. Əgər kənardan bizə mane olmasalar, gənc nəsil daha gözəl və sülh içində yaşaya bilər. Bu uğurlu siyasətə görə cənab Prezident İlham Əliyevə təşəkkürümü bildirirəm.”

**Şəhər sakini Şəhla Atakişiyeva:** ”Bu görüş və sülh müqaviləsinin imzalanması mənim üçün çox ümidverici bir xəbərdir. Biz illərlə qonşularla gərginlik içində yaşamışıq, indi isə belə bir tarixi addım atılması gələcək nəsillər üçün sülh və əməkdaşlıq ümidini artırır. Zəngəzur dəhlizinin açılması iqtisadiyyat üçün də böyük fürsətlər yaradacaq, ticarət və turizm sahəsində yeni imkanlar açılacaq. Mənim fikrimcə, bu, həm də regionda stabil və dayanıqlı inkişaf üçün əhəmiyyətli bir addımdır.”

**Şəhər sakini Emil Əliyev:** ”Bu xəbəri eşidəndə sevindim. Sülh müqaviləsi yalnız siyasətçilər üçün deyil, hər bir vətəndaş üçün əhəmiyyətlidir. İnsanlar azad səyahət edə biləcək, ticarət və əməkdaşlıq imkanları genişlənəcək. Zəngəzur dəhlizinin açılması həm də bölgədə insanlar arasında əlaqələrin güclənməsinə xidmət edəcək. Mən ümid edirəm ki, bu, uzunmüddətli və dayanıqlı sülh üçün başlanğıc olacaq.”

**Şəhər sakini Məmməd Ağayev:** ”Bu görüş mənim üçün böyük sevinc və ümid mənbəyidir. Uzun illər ərzində arzuladığımız sülhün bu gün gerçəkləşdiyini görmək ürəyimi isindirir. Şəhidlərimizin qanı, torpaqlarımızın qorunması və Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində belə bir tarixi an yaşadıq. İnanıram ki, gənc nəsil bundan sonra daha təhlükəsiz, sülh və firavan bir mühitdə yaşayacaq. Bu uğur üçün dövlət başçısına minnətdarlığımı bildirirəm.”

**Şəhər sakini Tural Məmmədov:** ”Mən iqtisadi perspektivdən bu xəbəri çox müsbət qiymətləndirirəm. Zəngəzur dəhlizinin açılması yükdaşımaların sürətlənməsinə və ixrac-idxal imkanlarının artmasına səbəb olacaq. Eyni zamanda, sülh müqaviləsi iqtisadi investisiyaların cəlb olunmasına da töhfə verə bilər. Təbii ki, siyasi tərəflərin və tərəfdaş ölkələrin bu razılaşmaya sadiq qalması vacibdir, amma mən ümid edirəm ki, bu həm region, həm də ölkəmiz üçün yeni imkanlar yaradacaq.”

**Şəhər sakini Fuad Qurbanoğlu:** ”Bu görüş və sülh müqaviləsi mənim üçün çox ümidvericidir. Şəhidlərimizin canları bahasına qorunan torpaqlarımızın sülh yolu ilə inkişafına gətirdiyi imkanları görmək qürurvericidir. Prezident İlham Əliyevin liderliyi və diplomatik bacarığı olmadan belə bir nəticəyə gəlmək mümkün olmazdı. Zəngəzur dəhlizinin açılması həm iqtisadiyyat, həm də regionlararası əməkdaşlıq üçün böyük fürsət yaradacaq. Mənim fikrimcə, bu, həm də gələcək nəsillər üçün sülh və stabilliyin təminatıdır.”

***Günel Fərzəliyeva***



# İsveçrə parlamenti ermənipərəst deputatların Azərbaycan əleyhinə qətnamə layihəsini rədd edib

İsveçrə parlamentinin yuxarı palatası olan Kantonlar Şurasının Xarici Əlaqələr Komitəsi avqustun 11-də Cenevrə kantonunun parlamentinin bir sıra ermənipərəst üzvlərinin 2024-cü il noyabrın 5-də irəli sürdükləri ”Dağlıq Qarabağın ilhaqı və Azərbaycanın siyasi məhbuslarının azadlığa buraxılması” adlı 24 321 saylı qətnamə layihəsini rədd edib. Bu barədə SİA-ya Azərbaycanın İsveçrədəki səfirliyindən məlumat verilib.

Bildirilib ki, səfirliyin apardığı iş nəticəsində həmçinin komitənin vitse-prezidenti, Azərbaycana qarşı qərəzli mövqeyi ilə seçilən Karlo Sommaruganın irəli sürdüyü və yalnız ”məhbuslara” və ”erməni mədəni irsinin mühafizəsinə” istinad edən yeni qərar layihəsi də 5 əleyhinə, 4 lehinə, 3 bitərəf olmaqla gündəlikdən çıxarılıb.

Qeyd edək ki, İsveçrə parlamentinin Xarici Əlaqələr Komitəsinin yaydığı məlumatda Cenevrə kantonal parlamentinin məlum təxribat xarakterli təşəbbüsünün birtərəfli və yalnız Azərbaycan tərəfinə tələblər sürdüyü bildirilib və belə yanaşmaya etiraz ifadə olunub.

# "Azərbaycanın ərazi bütövlüyü bərpa olunub"

"Azərbaycanın 2020-ci ildən əldə etdiyi nəticələr həm ölkəmizin ərazi bütövlüyünün bərpasıdır, həm qələbəmizdir, həm də ədalətsizliyin aradan qaldırılmasıdır". Bu sözləri SİA-ya açıqlamasında Azad Vətən Partiyasının sədri Akif Nağı deyib. Onun sözlərinə görə, bu, eyni zamanda regionda addım-addım sülhün və sabitliyin təmin olunmasına xidmət edir: "Ermənistan daim müəyyən qüvvələrin əlində alət kimi istifadə olunmuş və ən azı son yüz ildə Azərbaycana qarşı müxtəlif təxribatlara cəlb edilmişdir. İstər 1905-1906-cı illərdə, istər 1918-1920-ci illərdə, istərsə də Sovet imperiyası dövründə ermənilərin əli ilə Azərbaycana qarşı çoxsaylı təxribatlar törədilmişdir. Həmişə regionda sabitliyi pozan qüvvələr məhz erməni təşkilatları və qurumları olmuşdur.



İndi çox ciddi bir nəticə əldə olunub. Yüzillik mübarizənin nəticəsi olaraq, ermənilərin alət rolundan çıxarılması, yəni zərərsizləşdirilməsi mümkün olub. Əgər alət varsa, ondan istifadə etmək istəyənlər də tapılır. Ermənilər bir vaxtlar Qərbin də, Rusiyanın da əlində alət kimi istifadə olunublar. Son 30 ildə Rusiya bu alətdən regionda sabitliyi pozmaq və nəzarəti əlində saxlamaq üçün istifadə edib. Qərb də müəyyən dövrlərdə bu rolu oynayıb. Otuz ilin ərzində gah Qərb təşəbbüs göstərib, Ermənistan Qərbə meyl edib və Qərbin sifarişlərini yerinə yetirib. Lakin sonradan Ermənistan gördü ki, Qərbdən real dəstək yoxdur və yenidən Rusiyanın təsir dairəsinə qayıdaraq onun alətinə çevrildilər, tam sonadək də Rusiyanın təsirində qaldılar.

Bu mənada sənədlərin imzalanması və ya sülh sazişinin paraflanması əlbəttə ki, ciddi addımdır, lakin bunu həddindən artıq şişirtmək doğru deyil. Bu, regionda təhlükəsizliyin və sabitliyin təmin olunması baxımından mühüm bir addımdır. Amma risklər hələ də qalır, çünki Ermənistan, erməni siyasi xarakteri baxımından, imzaladığı sənədlərə hörmətlə yanaşmır. Bununla belə, bu böyük nəticədir. Belə bir sənədin imzalanması təkcə Azərbaycanın deyil, bütün regionun xeyrinədir. Gürcülər də özlərini rahat hiss edəcək, ermənilər də müəyyən bir dövrə qədər eyni şəkildə. Lakin bu yalnız o vaxta qədər davam edəcək ki, ermənilər bir az güclənən kimi yenidən Azərbaycana və regionun digər xalqlarına qarşı təxribatlara başlamasınlar".

Sədr eyni zamanda qeyd edir ki, bu gün Azərbaycan müəyyən təhlükələri aradan qaldırıb, amma risklər hələ də mövcuddur. Azərbaycan prosesi sonadək aparmalı, elə bir mərhələyə çatdırmalıdır ki, Ermənistan regionda heç bir təşəbbüs göstərə bilməsin, heç bir təxribatın alətinə çevrilməsin və yeni qarşıdurmalar yarada bilməsin. Əgər bu hədəfə nail olunarsa, demək olar ki, regionda tam sabitlik bərqərar olacaq və bütün böyük bəlalardan region xilas olacaq.

Ermənistanın təxribat potensialı hələ də bir alət kimi istifadə olunur, lakin regionda yaranmış sabitlik bəzi dövlətləri narahat edir, çünki bu, onların maraqlarına uyğun deyil. Ermənistan faktoru ilə bağlı xüsusilə Rusiya və İran nəzərə çarpır. Ehtimal ki, Avropada da bəzi dövlətlər regiondakı vəziyyətdən tam razı deyillər. Region onların nəzarətindən çıxır və Avropa burada istədiyi nəticəni əldə edə bilmir. Xüsusilə Fransa bu istiqamətdə çox çalışsa da, uğur qazana bilmir.

Bununla yanaşı, zaman-zaman yeni şəraitlər formalaşır və bu da müəyyən təhlükələri gündəmə gətirə bilər. Rusiyanın bu istiqamətdə planlar qurduğu istisna deyil. Lakin Azərbaycanın imkanları kifayət qədər güclüdür. Regionda Türkiyə ilə birgə mövqeyi güclüdür. Azərbaycanla ABŞ arasında münasibətlər mövcuddur, eyni zamanda Azərbaycan artıq super iqtisadi gücə çevrilmiş Çinlə strateji tərəfdaşlıq müqaviləsi imzalayıb. ABŞ-la da strateji tərəfdaşlıq barədə müqavilə hazırlanır və əslində bu tərəfdaşlıq praktikada artıq mövcuddur. Azərbaycanın gücü onun ərazisinin kiçikliyi ilə deyil, maliyyə-iqtisadi imkanları, geostrateji mövqeyi və davamlı siyasəti ilə ölçülür. Azərbaycan bütün təxribatlara qarşı təkbaşına dayana bilir və super dövlətlər də bununla hesablaşırlar. Bu gün bəzi dairələr regiondakı proseslərin qarşısında "tıxac" kimi məhz Azərbaycanı görür və bu səbəbdən ölkəmizə qarşı müxtəlif ifadələr işlədilir. Amma reallıq budur ki, Azərbaycan kifayət qədər güclü amillərə malikdir və hər kəs bu amillərlə hesablaşır. Hətta İran da bu reallığı nəzərə almağa məcburdur. Azərbaycanda baş verən proseslər İranın öz daxilində, xüsusilə azərbaycanlıların yaşadığı bölgələrdə də əks-səda doğurur və bu təsadüfi deyil.

*Günel Fərzəliyeva*



## Salam verdim, amma...

**MƏTANƏT**

Allahın adlarından biridir, salam. Böyüklərimiz həmişə deyərdi ki, nə qədər çox salam verirsənsə, Allahın adını bir o qədər anmış olursan. Odur ki, əvvəlki illərdə insanlar salamlaşmanı sevir və böyük sayğı hesab edirdilər. Xüsusilə də rayon yerlərində qarşılaşan insanların hər biri salamlaşmadan keçməzdi. Bu gün böyük şəhərlərdə yaşayan insanların əksəriyyəti həmin rayonlardan bu şəhərlərə gəldiyindən onlar salamlaşmanın nə demək olduğunu da yaxşı bilirlər.

Çox təəssüf ki, müasir dövrdə salamlaşmaq mədəniyyəti də digər əhəmiyyətli məsələlər kimi müasir insanlar tərəfindən artıq tarixin arxivinə göndərilməkdədir. Böyük Məhəmməd Füzuli sanki, "salam verdim, rüşvət deyildir deyə, almadılar" kəlamını bu gün üçün qələmə alıbmış. İnsanlar sanki salamın maddi deyil, hava olduğunu düşünərək onu boş bir şey hesab edir və verilən salamın alınmasını məsləhət bilmirlər. Bunu qonşuluqda da, iş yerində də, ümumiyyətlə, salam verməli olduğumuz hər yerdə müşahidə edirik.

Böyük şəhərlərdə insanlar bir-birini tanımadığından, əlbəttə, küçədə hər kəsə salam vermək olmur. Lakin qonşuluqda, iş yerində, kollektivdə, hər hansı təşkilata daxil olduqda bir-biri ilə qarşılaşan hər kəs təbii ki, salamlaşmalıdır. Lakin gəlin, görək, liftə daxil olur, salam verirsən, burada kiminsə səsi çıxırmı? Adam, vallah, utanır ki, salam verdim, bunlar yəqin məni anormal hesab edib salamımı almadılar. Və yaxud da iş yerində elə adamlar var ki, salam verirsən, səsi çıxmır. Sanki buna borcun varmış, salam verdin həmin borc yadına düşdü, acıqlandı ki, salamını özünə saxla, borcunu qaytar.

Beləliklə, milli-mənəvi dəyərlər toplumuzdan hər gün bir sətir silinib gedir. Biz artıq özümüzdən başqa hər kəsə oxşamağa başlamışıq. Həyatımız, dəyərlərimiz, davranışığımız hər gün bir qədər "müasirləşir". Bu "müasirlik", bax, belə insani keyfiyyətlərimizə də təsirsiz ötmür.

Salam verəndə, qarşındakı insanın "salam" deyə cavab verməsi nə qədər əziyyətlidir, nə qədər dil-ağıza yük düşür, bax, bunu hesablamaq bir qədər çətin gəlir insana. Odur ki, insanların bu davranışından sadəcə "salam vermə, almayacam" qənaətinə gəlmək olur. Lakin şəxsən mən həmişə salam verəcəm. Çünki bu, həm mədəniyyət, həm etiket qaydası, həm də Allahın adını anmaqdır.

Çox salam verib, qarşılığını almayanlardan biri kimi, salamlaşma ilə bağlı yazmaq, ürəyimi boşaltmaq istədim. İstədim biləm ki, mənim salamımı almırlar, yoxsa, hamıda belədir? Lakin mən bu qənaətdəyəm ki, min dəfə də bu fikrə düşən olsa ki, "yox, vermə, almayacam", yenə də salam verək, sabahınız, axşamınız, hərvaxtınız xeyir, deyək. Bəlkə bir gün bu sözlərin qarşılığını eşitmiş olarıq. Odur ki, salam, əziz oxucular və hər kəs, hərvaxtınız xeyir olsun.



FELYETON

# Ət yemə, qocalma...

Yüz ildir ki, tibb də, təbabət də deyir və təsdiq edir ki, ət insanı qocaldır. Çox təəssüf ki, biz də ət sevənik. Odur ki, nə tibbə, nə də təbabətə məhəl qoyuruq. Bildiyimiz biləyimizdədə, öz yolumuzla gedirik, elə ki, əlimizə pul keçdi, ilk düşündüyümüz ət olur, ala bilsək də, bilməsək də. Hələ aramızda elələri var ki, içində ət olmayan yeməyi yemir. Deyir ki, bundan yemək çıxmaz. Soruşanda da ki, nə üçün? Deyir ki, içində qırmızı şey olmayan yemək deyil.

Ölkəmizdə də nə qədər desən, toyuq, ət alverçisi var. Nə yaxşı da ki, var. Belə baxanda, onlar bizi özümüzdən çox istəyir. Sağlamlığımızın da qeydinə qalırlar, sağ olsunlar. Ətin, toyuğun qiymətini özləri istəməyərək, bizə xətir hərdən çox azca qaldırırlar ki, bəlkə pul tapıb ala bilməyək. Görürlər ki, yox, bu, camaata kar etmir. Elə yenə də əllərinə pul düşdümü, "ziyandır",- bilmir, ət, toyuqdur ki, daşıyırlar. Belə olanda yenə bizə xətir qiyməti bircə damcı da qaldırırlar.

Bir də görürsən ki, camaat "bahadır",-deyib ətə deyil, toyuğa meyl edir. Belə olanda bizi düşünənlər başlayır toyuğu broylerin gücləndirilmiş rejimdə istehsalına. Maşallah, elə işləyirlər ki, 3 günə 1-2 kiloqramlıq toyuq hazır olur, mağaza-marketlər də ağzınadək dolu olur. Al, ye...

Hərdən, sağ olsunlar, qırmızı ət xəstələrinə yazıqları da gəlir. Bunun üçün haralara üz tuturlar, Allah bilir. Bir də baxırsan ki, marketlər doldu şaqqa-şaqqa ətlərlə. Camaat əziyyət çəkib nə bu ətləri kəsəni, nə harada kəsildiyini görür.

Niyə də görməlidir ki? Yox, hələ işini gücünü burax, bununla da maraqlan. Sənin ki, bu qayğını çəkənlər var, sağ olsunlar, gedib danışır, kəsdirib gətirir, doğrayıb yığırlar ora, sən də rahat al, ye də.

Ancaq çox təəssüf ki, bizim bu camaat sən deyən qədirbilən deyil ha... Yazıq alverçilər gedib o qədər əziyyət çəkib gətirib sizə su qiymətinə ət, toyuq verməyəcək ki. Elə hey eşidirsən ki, camaat narazıdır. Nədən? Qiymətlərdən. Deyirlər ki, ətlə toyuğun qiyməti hər gün qalxır.

Harada qalxdı axı? Hərdən 1-2 manata qiymət qalxması deyirsiniz? Niyə bu nə qədər artımdır ki, dilə alıb danışırsınız.

Hələ bu azmış kimi, toyuq yetişdirəni, ət gətirəni və satanı möhtəkir də adlandırırsınız. Əşi, bu insanlar sizi düşünür axı. Azacıq artım da hərdən ona görə olur ki, sizlər arada kartof, lobya, badımcan, əriştə, yarma, vermişel də yeyəsiniz. Yoxsa, nə qədər toyuq, ət yemək olar. Camaat sizdən yana narahatdır ki, qocalmayasınız, həmişə gənclik təravəti üzünüzdə olsun, vaxtından əvvəl üz-üzünüz, əlləriniz qırışmasın, siz də sizi düşünənlərin adını möhtəkir qoyur, bu cüzi artımlar üçün səhərdən axşama deyinirsiniz.

Vallah, xətriniz qalsa da deyəcəyəm, qədirbilən deyilsiniz. Sizi düşünənlərin qədrini bilmədikcə, Allah sizə heç pul da yetirməyəcək ki, ət alıb yeyə biləsiniz. Bir gün o möhtəkir adlandırdıqlarınız sizdən elə inciyəcək ki, qiyməti qaldırıb qoyacaq ceyranın belinə, onda marketlərdə ətə yalnız şüşənin arxasından baxa-baxa qalacaqsınız... Onda ağlınız başınıza gələcək.

*Mətanət Məmmədova*

# İkinci əl geyimləri sağlamlıq üçün dəhşət saçır!

Azərbaycanda ikinci əl geyim mağazalarına maraq son illərdə artmaqdadır. Buna səbəb həm ekonomik, həm də ekoloji və estetik yanaşmalardır. Bir çox insan həm keyfiyyətli, orijinal brend geyimləri daha münasib qiymətə əldə etmək, həm də fərqli və retro üslublu tərz yaratmaq üçün bu mağazalara üstünlük verir. SİA mövzu ilə bağlı araşdırma aparıb. İkinci əl geyim mağazaları (bəzən "second hand", "thrift store" və ya "vintage shop" kimi tanınır) müxtəlif səbəblərlə istifadə olunmuş, lakin yararlı və təmiz geyimlərin satışını həyata keçirən yerlərdir.



## Azərbaycanda bu sahədə əsasən 3 tip fəaliyyət forması müşahidə olunur:

1. Fiziki mağazalar
2. Onlayn satış səhifələri (Instagram, Facebook, WhatsApp)
3. Xeyriyyə məqsədli ikinci əl geyim aksiyaları və bazarları

## Bakı və böyük şəhərlərdə populyar mağazalar

1. Second Life Baku
* Bakıdakı ən tanınmış ikinci əl geyim mağazalarından biridir.
* Burada Avropadan gətirilmiş orijinal brend geyimlər münasib qiymətlərlə satılır.
* Bəzi geyimlər vintage və retro üslubundadır.
* Sosial mediada aktivdirlər.

## 2. La Boutique Vintage

* Daha çox retro və klassik tərzli geyimlər təklif edir.
* Hədəf auditoriyası kreativ və fərqli geyim tərzi axtaran gənclərdir.

## 3. Chelebi Store

* Orijinal brend məhsulların ikinci əl və ya outlet versiyalarını satır.
* Tez-tez "sample sale" və ya "vintage bazar" tədbirləri keçirir.

## 4. Bakı Vintage Market

* Aylıq və ya dövri olaraq keçirilən yarmarka tipli tədbirdir.
* Burada fərdi satıcılar və dizaynerlər ikinci əl geyim və aksesuarlarını təqdim edir.

Onlayn platformalar
Instagram səhifələri:
* @secondhandbaku
* @thriftstore_baku
* @vintagestore.az
* @cheap_clothes_baku

Bu səhifələrdə geyimlərin şəkli, ölçüsü və qiyməti paylaşılır və sifarişlər DM və ya WhatsApp üzərindən qəbul olunur. Bəziləri çatdırılma xidməti də təklif edir.

Facebook qrupları:
* "Bakı Second Hand"
* "Second Hand Clothes Baku"
* Bu qruplarda həm fərdi satışlar, həm də mübadilə (barter) təklifləri olur.

## Satılan məhsullar:

* Kişi, qadın və uşaq geyimləri
* Aksesuarlar (çantalar, şərflər, bijuteriyalar)
* Ayaqqabılar
* Bəzən ev tekstili (pərdə, dəsmal, çarpayı dəstləri)

## İkinci əl mağazalarının üstünlükləri

Qiymət- Yeni məhsullardan qat-qat ucuzdur
Ekoloji- Tullantının azalmasına və təkrar istifadəyə töhfə verir
Unikal üslub- Kütləvi geyimlərdən fərqli, fərdi stil yaratmaq imkanı verir
Brend əlçatanlığı- Brend məhsulları daha ucuz qiymətə almaq mümkündür

## Çətinlik və məhdudiyyətlər

* Ölçülərdə məhdud seçim
* Bəzən istifadə izləri və ya kiçik defektlər
* Gigiyena ilə bağlı şübhələr (lakin tanınmış mağazalar hamısını yuyulmuş və təmiz şəkildə təklif edir)
* Hər kəsin psixoloji olaraq ikinci əl geyimə rahat yanaşmaması

Azərbaycanda ikinci əl geyim mağazaları artıq təkcə maddi çətinlik yaşayanların deyil, həm də moda ilə maraqlanan, ekoloji şüurlu, unikal stil axtaran şəxslərin seçiminə çevrilib. Yaxın gələcəkdə bu sahənin daha da inkişaf edəcəyi, yeni butiklərin və onlayn platformaların yaranacağı gözlənilir. İkinci əl geyim almağın bir sıra üstünlükləri olsa da (məsələn, ucuz qiymət, ekoloji yanaşma, fərdi stil), bəzi mənfi tərəfləri və riskləri də mövcuddur. Bu risklər həm gigiyenik, həm psixoloji, həm də praktik səviyyədə özünü göstərə bilər.

## İkinci əl geyim almağın əsas mənfi tərəfləri

*Gigiyenik risklər*

İkinci əl geyimlərin əvvəlki sahibləri tərəfindən necə istifadə edildiyi məlum deyil. Bu səbəbdən müəyyən gigiyenik təhlükələr yarana bilər:
* Dəri xəstəlikləri riski (məsələn, göbələk infeksiyaları, bit, uyuz və s.)
* Allergik reaksiyalar (tozv ə ya əvvəlki istifadəçidən qalan maddələr səbəbilə)
* Gigiyenik təmizlənmə zəif aparılıbsa, bakteriya və virusların qalma ehtimalı
* Ayaqqabı və alt geyimlərdə bu risk daha yüksəkdir (çünki birbaşa dəri ilə təmasdadır)

İkinci əl geyim almaq qənaətcil və ekoloji baxımdan müsbət olsa da, alıcı bu prosesə şüurlu yanaşmalı, gigiyena və keyfiyyət məsələlərini diqqətlə yoxlamalıdır. Xüsusilə alt geyimlər, uşaq geyimləri, ayaqqabılar və birbaşa dəri ilə təmasda olan məhsullar daha diqqətlə seçilməlidir. Dünyada ikinci əl geyim sənayesi son illərdə böyük sürətlə inkişaf edir və bu sahə artıq təkcə maddi imkanı məhdud şəxslərə deyil, həm də ekoloji düşüncəli, stil sahibi və şüurlu istehlakçı profillərinə xitab edən qlobal moda hərəkətinə çevrilib.

## Dünyada ikinci əl geyim bazarı: Ümumi mənzərə

*İkinci əl geyim sənayesi necə böyüyür?*
* 2023-cü ilin statistikalarına görə, qlobal ikinci əl geyim bazarının dəyəri 177 milyard dolları keçib.
* ThredUp və GlobalData kimi analitik şirkətlərin hesabatlarına əsasən, bu bazar 2030-cu ilə qədər təxminən iki dəfə böyüyəcək.

## Ekoloji tərəfi və davamlı moda

İkinci əl geyimlərin yayılması "davamlı moda" (sustainable fashion) anlayışının bir hissəsidir. Hazırda tekstil sənayesi dünyanın ən çox çirkləndirən sahələrindən biridir:
* 1 köynəyin istehsalında 2700 litr su sərf olunur
* Tekstil tullantılarının təkrar emalı aşağı səviyyədədir
* Fast fashion brendləri ildə milyonlarla geyimi zibilə atır

Bu problemlərə cavab olaraq, ikinci əl geyim istifadəsi:
* Tullantının azaldılması
* Suyun və enerji resurslarının qorunması
* İstehlakçının daha etik seçimlər etməsi üçün bir vasitə rolunu oynayır.

Dünyada ikinci əl geyim yalnız ucuz alternativ deyil, həm də:
* ekoloji məsuliyyətli seçim,
* şəxsi tərzin ifadəsi,
* texnologiya dəstəyi ilə inkişaf edən qlobal trend halını alıb.

***Ayşən Vəli***

# İş və şəxsi həyat balansı - müasir iş rejiminin ailə münasibətlərinə təsiri

***Müasir dövrdə qloballaşma, texnologiyanın sürətli inkişafı və əmək bazarının dəyişən tələbləri insanların iş və şəxsi həyat balansına təsir göstərən əsas amillərdəndir. İş vaxtının uzanması, "hər zaman onlayn" iş mədəniyyəti və yüksək peşə tələbləri bir çox hallarda ailə münasibətlərinin keyfiyyətini zəiflədərək psixoloji gərginlik yaradır. SİA mövzu ilə bağlı araşdırma aparıb.***

Araşdırmalar göstərir ki, iş yükünün çox olması ailədaxili ünsiyyətin azalmasına, emosional uzaqlaşmaya və konfliktlərin artmasına səbəb ola bilər. Eyni zamanda, ailə öhdəlikləri ilə iş öhdəlikləri arasında balansın pozulması həm iş performansına, həm də şəxsi həyatın məmnunluq səviyyəsinə mənfi təsir edir.



## Balansı pozan əsas faktorlar:

Uzun iş saatları - Həftəlik iş saatının normadan çox olması ailə ilə keçən vaxtı azaldır.

Rəqəmsal bağlılıq - İş saatı bitdikdən sonra da e-poçt, zəng və mesajlarla iş prosesinin davam etməsi.



Sabit olmayan iş qrafiki - Növbəli və dəyişkən qrafik ailə planlaşdırmasını çətinləşdirir.

Peşə və karyera təzyiqi - Müvəffəqiyyət və yüksəliş üçün şəxsi həyatın ikinci plana keçməsi.




## Müsbət balans üçün strategiyalar:

İşə aid texnologiyalardan müəyyən saatdan sonra uzaqlaşmaq ("digital detox").

İş qrafikinin ailə fəaliyyətlərinə uyğunlaşdırılması.

Ailə daxilində keyfiyyətli vaxt konsepsiyasının tətbiqi.

İş yerlərində "iş və həyat balansı" siyasətlərinin təşviqi (fleksibil iş qrafiki, evdən işləmə imkanı).

Bu mövzu həm fərdi psixologiya, həm də sosial siyasət baxımından aktualdır, çünki iş-həyat balansının qorunması yalnız fərdi məmnunluğu deyil, həm də cəmiyyətin sosial sabitliyini təmin edən amillərdən biridir.

## İş və şəxsi həyat balansı: müasir iş rejiminin ailə münasibətlərinə təsiri

İş və şəxsi həyat balansı - insanın peşə öhdəlikləri ilə ailə və fərdi maraqları arasında harmoniyanı qoruma səviyyəsini ifadə edir. Müasir əmək bazarında rəqabət və texnoloji inkişaf işin intensivliyini artırmış, nəticədə ailə münasibətləri və sosial həyatın keyfiyyətinə təsir güclənmişdir.

## Beynəlxalq statistik mənzərə

Beynəlxalq Əmək Təşkilatının (ILO) 2024-cü il hesabatına görə:

Avropa İttifaqı ölkələrində orta iş həftəsi 37-39 saatdır. Yaponiya və Cənubi Koreyada iş saatlarının uzunluğu "işçi yanması" (burnout) hallarının artmasına səbəb olur. Skandinaviya ölkələri (xüsusilə İsveç və Norveç) qısaldılmış iş həftəsi modeli tətbiq edərək iş-həyat balansı göstəricilərində ən yüksək nəticələrə nail olublar.

## Azərbaycanda vəziyyət

Azərbaycan qanunvericiliyinə görə həftəlik normativ iş vaxtı 40 saatdır. Lakin qeyri-rəsmi statistikalar göstərir ki, bəzi sahələrdə (məsələn, ticarət, tikinti, xidmət sektoru) işçilərin həftəlik iş saatı 50-60 saata qədər uzanır.

Dövlət Statistika Komitəsinin 2023-cü il hesabatında, respondentlərin 42%-i ailəsi ilə kifayət qədər vaxt keçirə bilmədiyini bildirib. Şəhər mühitində yaşayanların iş yükü kənd yerlərində yaşayanlardan daha yüksəkdir. "Onlayn bağlılıq" (iş saatı bitdikdən sonra da zəng və mesajlara cavab vermək) mədəniyyəti getdikcə geniş yayılır.

## Ailə münasibətlərinə təsir

**Ünsiyyətin azalması:** Uzun iş saatları ailə üzvləri arasında qarşılıqlı əlaqəni zəiflədir.

**Emosional uzaqlaşma:** Fiziki yaxınlıq olsa da, emosional paylaşım azalır.

**Uşaq tərbiyəsinə təsir:** Valideynlərin az vaxt ayırması uşaqlarda emosional dəstək çatışmazlığı yarada bilər.

**Stressin ötürülməsi:** İşdə yaranan gərginlik ailə mühitinə daşına bilir.

## Beynəlxalq təcrübədən həll yolları

Fleksibil iş qrafiki (Almaniya, Niderland təcrübəsi) - iş saatlarının fərdi ehtiyaclara uyğun tənzimlənməsi.

4 günlük iş həftəsi (İslandiya və BƏƏ nümunəsi) - məhsuldarlığın artması və işçi məmnuniyyətinin yüksəlməsi.

Uzaqdan iş imkanı (pandemiya sonrası model) - ailə ilə daha çox vaxt keçirmək imkanı.

İşçi rifahı proqramları - psixoloji dəstək, ailəvi tədbirlər, övlad baxımı dəstəyi.

## Azərbaycanda tövsiyələr

Əmək Məcəlləsinə "fleksibil iş" anlayışının daha geniş tətbiqi.

Dövlət və özəl sektorda "iş-həyat balansı" siyasətlərinin hazırlanması.

Rəqəmsal bağlılıq mədəniyyətinə məhdudiyyətlər (məsələn, iş saatı bitdikdən sonra məcburi onlayn mövcudluğun ləğvi).

Ailə psixologiyası və işçi rifahı mövzularında maarifləndirici kampaniyalar.

İş və şəxsi həyat balansının qorunması yalnız fərdi rifahın deyil, həm də milli sosial sabitliyin vacib şərtidir. İşçilərin fiziki və emosional sağlamlığının qorunması ailə münasibətlərinin möhkəmlənməsinə, sosial həmrəyliyin artmasına və məhsuldarlığın yüksəlməsinə gətirib çıxarır.

***Ayşən Vəli***



# Növbəti və son mərhələ

*Tehranla Moskvanın regionla bağlı yeni planları üzə çıxdı*



Ermənistanla müharibəni bitirmək üzrəyik. 37 illik münaqişə, onun böyük qarşıdurmaya, daha sonra amansız müharibəyə çevrilməsinə son qoymaqdayıq. Aydındır, ən çətin mərhələdəyik, işimizə mane olmaq istəyənlər üzdə loyal görünməyə çalışsalar da, hər an baş qaldıra bilərlər. Hərəsinin də öz marağı, öz "layihəsi" var. Sanki Azərbaycanın da yerləşdiyi Cənubi Qafqaz onlara dədələrindən miras qalıb. İstədikləri düzəni qurmaqda sərbəst kimi görünürlər və kimsə ilə hesablaşmaq niyyətində olmadıqlarını hər addımda büruzə verirlər. Günün yox, 30 ilin sualıdır, İranın Cənubi Qafqaza nə aidiyyəti var, daha doğrusu, daha dəqiqi Tehrana kim ixtiyar verib ki, iki ölkə arasında baş verən münaqişəyə qarışsın, hansı şərtlərlə sülh yaradılmasını korreksiya etsin və nəhayət Ermənistan ərazisindən keçən və Naxçıvana sərbəst keçidi təmin edəcək Zəngəzur dəhlizini özünün "qırmızı xətti" elan etsin? Həm də daha çox maraqlısı bu dəhlizin Araz çayının cənubundan keçməsindən İran narazı olmamasıdır, əksinə bu marşrutu təqdir, özünün qələbəsi kimi təqdim edir.

Uzun illər Araz çayının şimalından keçən, Sovet hakimiyyəti illərində Bakı ilə Naxçıvanı və İrəvanı, Tehranla Moskvanı birləşdirən dəmir yollarının mövcudluğundan İranın xəbəri olmamış deyil. Düzdür, həmin illərdə İranın Arazın şimalına boylanması, gözünün ucu ilə baxması yasaq idi. Bunu heç ağıllarına da gətirmirdilər. Bəs 1990-cı illərdə "hansı dağda çaqqal uladı" ki, Tehran Ermənistanla sərhədini "qırmızıladı", oranı özünün maraq dairəsinə qatdı. Görünür, Tehran rejimi türk dünyasını özünün düşməni elan etmiş Ermənistan kimi bir "əqidə yoldaşı", məsləkdaş, dərddaş tapmışdı. İranın qırmızıya boyanan marağında İrəvanın da az rolu olmamışdı.




İşğal dövründə transsərhəd çayı hesab olunan Araz çayı üzərində iri su bəndinin tikintisinə nə ad vermək olar? İran bilirdi ki, bu tikinti üçün çayın şimalındakı ölkədən icazə alınmalıdır. Amma bunu etmədi, əksinə separatçılarla iş birliyinə imza atmaqla bütün beynəlxalq sənədlərə tüpürdü. Azərbaycanın etirazlarına baxmayaraq su bəndini inşa etdi, nəticədə Azərbaycanın xeyli əraziləri, hətta bir kəndimiz su altında qaldı. Bəli, Tehran Azərbaycana qarşı bəd niyyətli olduğunu göstərdi və sübut etdi ki, bizə qarşı açıq düşmənçilik edir və bundan sonra belə olacaq.

Bu gün Ermənistanda və Azərbaycanda nəhayət sülhün imzalanacağı günü səbirsizliklə gözləyirlər. İnsanlar müharibədən, itkilərdən, gözləntilərdən yorulub. Bir daha müharibənin doğurduğu qara xəbərləri almaq istəmirlər. Onsuz da ətrafında bir dostu qalmayan İran rejimini idarə edən hakim dairələr, dini liderlər isə qana susamış kimi görünürlər. Ermənistanla Azərbaycanın sülh içində yaşaması onlar üçün qəbulolunası ən pis xəbərdir.

## İranın davranışları və "eks"lərin reaksiyası

Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan ABŞ-ın vasitəçiliyi ilə imzalanmış Ermənistan-Azərbaycan bəyannaməsi barədə verdiyi açıqlamada qeyd edib ki, hakimiyyət, təbii ki, bunu ən böyük uğurlarından biri hesab edərək sevinir. Parlament müxalifəti isə təbii ki, sazişdə nəinki müsbət bir şey görmür, əksinə, onun icrasının dağıdıcı nəticələrini proqnozlaşdırır. Mən isə, hələlik cavab verməkdən çəkinirəm, çünki əminəm ki, ona yalnız razılıq əldə olunandan sonra cavab veriləcək.

"Dost İran rəsmilərinin müxtəlif (bəlkə də bir-birini tamamlayan) qiymətləndirmələri və xüsusən də Rusiyanın demək olar ki, tamamilə susması məni hələ də bir qədər çaşdırır. İran diplomatiyası o qədər incədir ki, onu dərhal tanımaq bəzən çətin olur. Lakin öz təcrübəmə əsaslanaraq, sizi əmin edə bilərəm ki, ölkəmiz müstəqilliyini bərpa edəndən bəri İran Ermənistana qarşı nəinki narazılıq və ya irad bildirməyib, hətta bizim bütün müraciətlərimizə müsbət cavab verib. Bir sözlə, mən Ermənistanla İran arasında 30 ildən artıq davam edən münasibətlərdə hər hansı anlaşılmazlıq görməmişəm", - Levon Ter-Petrosyan qeyd edib.

"Vaşinqton sənədlərində Ermənistanın hesabına Azərbaycanın maraqları birmənalı şəkildə nəzərə alınır. Rusiya Ermənistan və Azərbaycan arasında atəşkəsdə öz rolunu unutmur və başqalarına da unutdurmayacaq". Bunu isə Hayk Babuxanyan deyib. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin danışıqları ilə bağlı şərhinə şərh verən siyasətçi rusiyalı diplomatla həmrəy olduğunu deyib. Qeyd edib ki, Moskva regionda kommunikasiyalara nəzarətdən məhrum ediləcək "atılacağı" faktına dözmək fikrində deyil: "Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasının hazırkı mərhələsi Rusiyanın birbaşa yardımı və mərkəzi rolu ilə 2020-ci il noyabrın 9-da ən yüksək səviyyədə üçtərəfli bəyanatın qəbulu ilə başlayıb".

Ermənistan parlamentinin deputatı Hayk Babuxanyan şərhində Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsinin bəyanatlarını belə təhlil edib: "Təsadüfi deyil ki, Zaxarova 2020-ci il noyabrın 9-da ən yüksək səviyyədə üçtərəfli bəyanatı da xatırladıb: axı, Rusiyanın nəzarəti altında olan regional kommunikasiyaların bloklanmasının "reseptləri" artıq orada yazılıb və açıq-aydın Rusiya bu məsələnin təkrarı ilə kifayətlənmir. Onun sözlərinə görə, Moskva "Vaşinqtonun regional kommunikasiyaların bloklanması ilə bağlı bəyanatlarını daha da təhlil edəcək". Yəni Moskva hesab edir ki, həm Əliyev, həm də Nikol bu gün imzaladıqları "müvafiq" "Rusiyanın iştirakı ilə üçtərəfli sazişləri" yerinə yetirməyə və müvafiq olaraq kommunikasiyalara nəzarəti Rusiyaya verməyə borcludurlar. Rusiya nəhəng resurslar xərclədikdən və sülhməramlı qüvvələrin "Artsax"a köçürülməsi zamanı itkilərə məruz qaldıqdan sonra, "atılanda" müşahidəçi mövqeyi tutacağını gözləmək olmaz. Təsadüfi deyil ki, Zaxarova Ermənistanın İranla sərhədinin Rusiya sərhədçiləri tərəfindən qorunduğunu xatırladıb. Zaxarova vurğulayıb ki, Cənubi Qafqazın problemlərinin həlli üçün ən yaxşı variant "yaxın qonşuları - Rusiya, İran, Türkiyənin dəstəyi ilə region ölkələrinin özləri tərəfindən hazırlanmış həll yollarını axtarmaq və gələcəkdə həyata keçirməkdir".

HAŞİYƏ: Bəs Rusiya indiyə qədər bu "sülhpərvər davranışlar"a niyə imzasını qoymurdu? Azərbaycanın Ermənistandan əsas istəklərindən biri, Naxçıvana maneəsiz keçid idi. Əgər Rusiya üçtərəfli bəyanata istinad edən üçüncü tərəf idisə, niyə bunu indiyə qədər təmin etmədi? Rusiyanın istəyi iki ölkə arasında sülhün yaranmasıdırsa və yolların açılmasıdırsa, onda bunun kimin təşəbbüsü ilə baş tutmasının Kreml üçün bir fərqi varmı? Görünür, var. Daha doğrusu, sülhün yaranması Moskvanın və Tehranın regional siyasətinə ziddir, onlar imperia xisləti olduqlarından qazanc ümidlərini yalnız qarmaşaya, qarşıdurmalara, müharibələrə, ölüm-itim və digər qeyri-bəşəri hadisələrə bağlayıblar.

Diqqət edin, Rusiya hesab edir ki, guya "regiondan kənar oyunçuların cəlb edilməsi sülh gündəmini gücləndirməyə çalışmalı və əlavə çətinliklər və ayırıcı xətlər yaratmamalıdır". Aydındır ki, Rusiya təxminən 5 il əvvəl eyni aktorlar tərəfindən imzalanmış üçtərəfli bəyanatı xatırlatmaqla məsələni heç də doğru istiqamətə aparmır. Sənədin kommunikasiyaların açılmasını nəzərdə tutan 9-cu bəndində yazılanlarla "Amerika versiyasında" yazılanlar arasında fərqin olduğunu ermənilərin diqqətinə gətirən Moskvanın əsas məqsədinin də daha çox tərəfləri yeni qarşıdurmaya gətirmək olmasıdır. "Ermənistanın Aİİ-nin vahid gömrük məkanına üzvlüyü faktorunu, xüsusən respublika ərazisindən tranzit yükdaşımalarının təşkili ilə bağlı amilin nəzərə alınması vacibdir", - Zaxarova bildirib ki, bu da "Tramp yolu"nu həyata keçirmək üçün Ermənistanın iqtisadi fəlakətlə dolu olan AİI-ni tərk etməli olması deməkdir.

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsinin bəyanatındakı "Ən mühüm şərtlərdən biri Azərbaycan və Ermənistan arasında münasibətlərin hər iki ölkə xalqlarının maraqlarının nəzərə alınması əsasında hərtərəfli normallaşmasıdır" fikri ilə ilə razılaşmamaq olmaz. Amma, "xalqların maraqları" deyəndə Zaxarova hansı xalqdan danışır, erməni, azərbaycanlı, yoxsa rus və fars? Vaşinqton sənədlərində Ermənistan və Azərbaycanın maraqlarının nəzərə alındığı açıq-aydın görünür.

## Vaşinqton danışıqları və Rusiya hərbi bazası







Vaşinqton danışıqları zamanı əldə edilən irəliləyişlər, xüsusən də Zəngəzur dəhlizi ətrafında baş verənlər İran və Rusiyanın hələlik siyasi dairələrini hərəkətə gətirib. Həm şimal, həm də cənub qonşumuz düşünür ki, sərhəd yaxınlığında Amerika bazasının açılması perspektivi Gümrüdəki Rusiya bazasının itirilməsinə səbəb ola bilər. Rusiya siyasi dairələrində hesab edirlər ki, "Erməni Qorbaçov" (Moskvanın Nikol Paşinyana verdiyi siyasi ad - red.) düşünmədən ölkənin taleyini düşmənlərinə təslim etməyi üstün tutdu.

Rəsmi olaraq İrəvan və Bakı 35 illik münaqişədən sonra bütün hərbi əməliyyatları həmişəlik dayandırmağı, ticarətə çıxışı açmağı və bir-birinin ərazi bütövlüyünə qarşılıqlı hörmət etməyi öhdəsinə götürür. Rusiyada isə hesab edirlər ki, bu "uzunmüddətli" razılaşma bir çoxları arasında şübhələr yaradır, çünki Ermənistan-Azərbaycan müqaviləsində, xüsusən də məşhur Zəngəzur dəhlizi ərazisində Amerika bazasının açılması proqnozu və bunun ardınca Gümrüdəki Rusiya bazasının mümkün itkisi ilə bağlı Rusiya və İranın Cənubi Qafqazdakı maraqlarına böyük ölçüdə məhəl qoyulmadığı aşkardır.

Bu gün Moskva ilə yanaşı, Tehran da Amerikanın Qafqazdakı mövcudluğuna qarşı çıxır. Amma hələlik görünən odur ki, Rusiya Ukraynada hadisələrin inkişafını gözləyərək vəziyyəti məcbur etmək niyyətində deyil. Qərbin Rusiyaya münasibətdə digər təsir sferalarında mövqelərini gücləndirmək üçün münaqişənin uzadılmasında maraqlı olması da bundan irəli gəlir.

## Moskva və Tehrandan oxşar baxış



ABŞ öz növbəsində Ermənistanın Zəngəzur bölgəsinin cənubunda Azərbaycanın əsas ərazisini Naxçıvanla birləşdirən, yüngül zirehli texnika ilə silahlanmış özəl hərbi şirkətlərdən ən azı min nəfərin yerləşdiriləbiləcəyi 40 kilometr yol olan dəhlizə 99 il ərzində tam nəzarəti ələ keçirib. Bakı Zəngəzur dəhlizi ilə Ermənistan ərazisindən bütün malların sərbəst daşınmasına çalışır. Vaşinqton Azərbaycanı Amerika silahları ilə doldurmaq niyyətində olmaqla, Bakı ilə hərbi əməkdaşlığa dair əvvəlki bütün məhdudiyyətləri aradan qaldırır.

Bu dəhliz həm də Türkiyəyə Xəzər dənizinə və buna görə də Türk Dövlətləri Təşkilatına (OTG) üzv olan Qazaxıstan və Türkmənistan kimi digər Mərkəzi Asiya ölkələrinə birbaşa çıxış imkanı verir. Bu həm də Ankaraya Azərbaycanda öz hərbi bazasını yaratmaq üçün logistik imkanlar açır. Beləliklə, NATO da faydalanır, çünki bir NATO ölkəsindəki hərbi baza praktiki olaraq anti-Rusiya cəbhəsində Alyansın bazasıdır.

Moskvada hesab edirlər ki, uduzanlar arasında ilk növbədə Ermənistan var. Zəngəzur dəhlizinin Ermənistan ərazisinin bir hissəsini öz yurisdiksiyasından çıxarması ilə yanaşı, "neytral və dost İran"ın sərhədyanı rayonları ilə əlaqəni təmin edən məhz bu yoldur. İrəvanın neytral qonşularından yalnız Gürcüstan qalıb, bütün digər ölkələr təhlükəsiz şəkildə düşmən əraziləri kimi təsnif edilə bilər. Müstəsna şərtlərlə Azərbaycan mallarının öz ərazisindən tranzitinə icazə verməklə Ermənistan, məsələn, İran və ya Rusiyaya daşınması müqabilində heç bir üstünlük əldə etmir, Amerika hərbi şirkətlərinin nəzarəti altında İranla öz quru nəqliyyat marşrutlarını verərkən, İrəvanın KTMT-yə üzvlüyünü "dayandırması" bir yana, Ermənistanın taleyini praktiki olaraq Türkiyə və Azərbaycanın ixtiyarına verir.




Rusiyaya gəlincə, müxtəlif ekspertlərin fikrincə, bu hadisələr nəticəsində onun mövqeyi güclü görünmür. Rusiyanın regionda təsirinin azalması, eləcə də 102-ci Rusiya hərbi bazasının Gümrüdən orta müddətli çıxarılmasını inkar etmək çətindir. Ermənistanda iqtidaryönlü medianın başlatdığı görünməmiş rusofob kampaniyası son məqsədə heç bir şübhə yeri qoymur: Rusiyanın Ermənistandan tamamilə çıxarılması. Bununla belə, Nikol Paşinyanın Vaşinqtonun başa düşdüyü kimi, 2026-cı il parlament seçkilərinə qədər bütün "Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə iddiaları" aradan qaldırmaq və beləliklə, Azərbaycanla tam hüquqlu sülh müqaviləsi bağlamaq üçün Konstitusiyanın dəyişdirilməsi ilə bağlı referendum keçirməyə vaxtının olub-olmayacağı hələ aydın deyil. Bu hələlik sual altındadır.

**V.VƏLİYEV**





# Vaşinqton görüşü tarixi qələbənin davamıdır

**2025-ci il avqustun 8-də ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Vaşinqtonda yüksək səviyyəli görüşün keçirilməsi tarixi hadisədir. Şübhəsiz ki, uzun illər dünya mediası, tanınmış şərhçilər, nüfuzlu siyasətçilər Ağ evdə baş tutan və imzalanan sənədlərin əhəmiyyəti ilə bağlı fikirlər səsləndirəcək, önəmli açıqlamalar verəcəklər.**



*Eldar İbrahimov*
*YAP İdarə Heyətinin üzvü, Milli Məclisin İntizam komissiyasının sədri, professor*

Tarixi görüş və imzalanan əhəmiyyətli sənədlər ABŞ - Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi ilə yanaşı, eyni zamanda ölkəmizlə Ermənistan münasibətlərinin sülh şəraitində qurulması imkanlarını yaradır. Artıq bölgəmizdə müharibə olmayacaq, xalqlar sülh şəraitində, birgə təhlükəsiz yaşaya biləcəklər. Bu şəraitin memarı isə fateh Sərkərdə, Prezident İlham Əliyevdir. 44 günlük Vətən Müharibəsinin qalibi olan Ali Baş Komandan İlham Əliyev həm də, sülhün banisidir. Onun qətiyyəti və prinsipiallığı nəticəsində bölgədə yeni müharibə yaratmaq istəyənlərin cəhdləri alt-üst olundu.

Məlum olduğu ki, Azərbaycan tərəfindən sülh müqaviləsinin imzalanması üçün Minsk Qrupunun ləğvi ilə əlaqədar ATƏT-ə birgə müraciətin edilməsi və Ermənistan Konstitusiyasına dəyişikliklərin edilərək Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılması təklifləri irəli sürülmüşdür. Hər iki təklif Ermənistan tərəfindən qəbul edildi. Bu məsələ ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Vaşinqton görüşünün nəticəsi olaraq imzalanan Birgə Bəyannamə də öz əksini tapıb.

## Minsk Qrupu rəsmən tarixin arxivinə göndərilir

Birgə Bəyannamənin 2-ci bəndində hər iki ölkənin XİN-ləri qısa müddətdə ATƏT-in hazırkı sədrinə Minsk Qrupunun ləğv olunması haqqında müraciət ünvanlayacaqlar. Eyni zamanda Azərbaycan və Ermənistan arasında dövlətlərarası münasibətlərin və sülhün qurulmasına dair Sazişin mətni paraflanandan sonra adıçəkilən "sazişin imzalanması və ratifikasiyasına nail olmaq üçün növbəti addımların atılması"nın zəruriliyi tanınır. Bununla da Ermənistan konstitusiyasının dəyişdirilməsinin zəruriliyi təsdiq olunur. 2026-cı ildə Ermənistanda konstitusiya dəyişiklikləri ilə əlaqədar referendum keçirildikdən sonra sülh sazişinin yekun imzalanması təmin olunacaq. Vaşinqton görüşündən sonra birmənalı şəkil də demək olar ki, Ermənistan razılaşmalara əməl etməli olacaq. Paşinyan hakimiyyətinin geri çəkilmək, yanlışlıqlara yol vermək imkanı sıfıra bərabərdir. Azərbaycan Prezidenti İlham Əliyev Ağ evdə baş tutan uğurlu görüşdən sonra KİV-ə verdiyi müsahibədə də bu məsələyə toxunaraq bildirdi ki, zaman Ermənistanın əleyhinə işləyən bir faktordur. Xarici təzyiqlər fonunda Ermənistan bu prosesdən boyun qaçırsa, ilkin olaraq ABŞ və onun dövlət başçısına qarşı hörmətsizlik və etimadsızlıq edəcək, bütövlükdə isə rəsmi İrəvan çıxılmaz və çətin bir vəziyyətə düşəcək. Ona görə də Ermənistan ən qısa müddətdə mümkün alternativ variantlar vasitəsilə konstitusiyaya dəyişiklikləri həll etməlidir. Əks halda Ermənistan ödənməsi çətin olan bir hesabı boynuna ala bilər. Budəfəki vasitəçi olan ABŞ digər vasitəçilərdən fərqli olaraq Ermənistanı cəzalandırmaq üçün bütün real imkanlara və rıçaqlara malikdir.

## Sülh gündəliyinin müəllifi də Azərbaycan Prezidenti İlham Əliyevdir

"The Washington Post" yazır ki, Vaşinqtonda əldə olunan razılaşma və imzalanan Birgə Bəyannamə ABŞ-ın Cənubi Qafqazdakı rolunu gücləndirir və Rusiyanın təsirini zəifledir. "The Washington Post" un iddiasına görə, Zəngəzur dəhlizi tərəflərarsında əldə olunan razılaşmanın əsas hissəsidir: "Trump bu diplomatik təşəbbüsü ilə yenidən qlobal siyasət səhnəsində ön plana çıxır və Nobel Sülh Mükafatı namizədliyi üçün ciddi zəmin yaradır". Rusiyanın nüfuzlu agentliklərindən olan "Reuters"da Vaşinqton görüşünə xüsusi önəm verir və sülh razılaşmasının ilkin mətni yayımlayaraq, ərazi bütövlüyünə hörmət, sərhədlərin tanınması və güc tətbiq etməmək prinsiplərini ön plana çıxarır. Vaşinqtonda əldə olunan razılaşmalar, imzalanan sənədlər bir daha Azərbaycanın uğuru, Prezident İlham Əliyevin növbəti qələbəsidir. Sülh gündəliyinin müəllifi də Azərbaycan Prezidenti İlham Əliyevdir.

2022-ci ilin əvvəlində sülh müqaviləsinin əsasını təşkil edən Azərbaycan "5 əsas prinsipi" Ermənistana təqdim etdi. Bu prinsiplər aşağıdakılardan ibarət idi: Bir-birinin suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərin toxunulmazlığının tanınması, Bir-birinə qarşı ərazi iddiası ilə çıxış etməmək, Bir-birinə qarşı güc tətbiq etməmək, güc tətbiqi ilə hədələməmək, Sərhədlərin demarkasiyası və delimitasiyası, diplomatik münasibətlərin qurulması, Kommunikasiyaların açılması. Ermənistanın asılı olması Azərbaycanın təqdim etdiyi prinsiplərin qəbul edilməsini bir qədər gecikdirdi. Nəhayət Ermənistan fakt qarşısında qaldığından Azərbaycanın təklifləri qəbul etməli oldu. Vaşinqitonda baş tutan uğurlu və yadda qalan görüş bütün suallara aydınlıq gətirdi və bir daha Azərbaycanın iradəsindən kənar addımların atılmasının mümkün olmadığını nümayiş etdirildi. Vaşinqton zəfəri ilə həm də pozucu qüvvələrə sarsıdıcı zərbə vuruldu. Çünki D.Trampdan əvvəl hakimiyyətdə olmuş Bayden-Blinken administrasiyası, Fransa Prezidenti Makron, Avropa İttifaqı öz gündəliklərini Azərbaycan-Ermənistan normallaşma prosesinə sırımağa can atırdılar. Bunun üçün onlar ölkəmizə qarşı çirkin iftiralara, təzyiqlərə, siyasi-diplomatik təxribatlara əl atırdılar.

Lakin Prezident İlham Əliyev prinsipiallıq və qətiyyət nümayiş etdirərək, hər cür çirkin kampaniyanı rədd etdi. Bununla da Azərbaycanla hər hansı bir təzyiq dili ilə danışmağın mümkün olmadığını nümayiş etdirdi. Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ prezidenti D.Trampla görüşü səmimi söhbətləri, birgə bəyanatları bir daha keçmiş qondarma qurumu "tanıyan" fransız deputatların, Avropa Parlamentinin, Qərb mediasının, Amnesty International, Human Rights Watch, erməni lobbisinin, ANCA-nın, Azərbaycanı sanksiya, təcridlə hədələyənlərin, Borellərin, Frenk Pallonelərin, Adam Şifflərin iflası oldu. Belə demək mümkünsə onlar rəzil bir vəziyyətə qalmış oldular.

## ABŞ-Azərbaycan əlaqələri yeni inkişaf mərhələsinə qədəm qoyur

Vaşinqitonda baş tutan tarixi səfər həm də. Azərbaycan-ABŞ əlaqələrinin inkişaf etdirilməsi ilə yadda qaldı. İki ölkənin Prezidentləri birbiri ilə səmimi, mehriban söhbətlər apardılar, müzakirələr qurdular. Xüsusilə də, ABŞ prezidenti Azərbaycan Prezidenti haqında xoş sözlər söylədi, fikirlər səsləndirdi. Bununla da bir daha təsdiqləndi ki, Prezident İlham Əliyev hələ 2024-cü ilin noyabrın 5-də ABŞ-da keçirilən prezident seçkiləri zamanı D.Trampın namizədliyini dəstəkləməklə düzgün və müdirik mövqe sərgiləyib. Nəzərə almaq lazımdır ki, ABŞ-da planlaşdırılan prezident seçkilərindən 3 ay öncə Şuşada keçirilən Qlobal Media Forumunda ABŞ-dakı seçkilərlə bağlı jurnalistin sualını cavablandırarkən Prezident İlham Əliyev cəsarət və uzaqgörən siyasət nümayiş etdirərək o zaman prezidentliyə namizəd olan D.Tramp haqqında müsbət fikirlər söyləmişi, diplomatik dillə desək, onun namizədliyini dəstəkləmişdir. Prezident İlham Əliyev bir neçə dəfə açıqlamalarında D.Trampın prezidentliyi dövründə ABŞ-ın heç bir müharibəni başlatmadığını, onun ailə dəyərlərinə, ənənəvi dəyərlərə xüsusi önəm verdiyini bildirib Vaşinqiton görüşündən sonra qeyd etmək olar ki, ABŞ-Azərbaycan münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoyur. Əməkdaşlıq strateji tərəfdaşlığa doğru irəliləyir. Səfər zamanı imzalanmış "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında strateji tərəfdaşlığa dair xartiyanın inkişaf etdirilməsi məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" buna əyani sübutdu. Azərbaycan-ABŞ strateji tərəfdaşlığı Enerji, ticarət və tranzitin də daxil olduğu regional bağlantılar, Süni intelekt və rəqəmsal infrasturukturun da daxil olduğu iqtisadi sərmayə və Müdafiə sahəsində satış, terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlığın da daxil olduğu təhlükəsizlik sahəsində əməkdaşlıq sahələrini əhatə edir. Yaradılacaq Strateji İşçi Qrupu regional bağlantılar infrasturukturunun və enerji sahəsində sərmayələrinin genişləndirilməsi, eləcə də regional iqtisadi-ticari əməkdaşlığın irəlilədilməsi, həmçinin süni intelektin inkişafı kimi vacib məsələlərlə məşğul olacaq. Prezident İlham Əliyevlə Prezident Tramp arasında qurulmuş uğurlu əməkdaşlığın nəticəsi olaraq bu səfər çərçivəsində Prezident Tramp tərəfindən "Azadlığı Müdafiə Aktı"na 907 saylı düzəlişin icrasını dayandıran sənəd imzalandı.

## Prezident İlham Əliyevin D.Trampın Nobel Sülh mükafatına namizədliyini irəli sürməsi təşəbbüsü dəstəklənir

1992-ci il də Azərbaycan torpaqları Ermənistan tərəfindən ardıcıl olaraq işğal edildiyi hal da erməni lobbisinin təqsiri ilə ABŞ Konqresi Azərbaycanın guya Ermənistana "blokada" tətbiq etməsini bəhanə kimi göstərərək, Azərbaycana ABŞ-dan dövlət yardımının göstərilməsini qadağan edən qanunu qəbul etmişdir. 2001-ci il də prezident Buş tərəfindən "907-ci düzəliş"in dayandırılması haqqında qərar imzalanmışdır. Səbəbi də Azərbaycana çox böyük ehtiyacları olması idi. Əfqanıstan müharibəsi ABŞ-ı çıxılmaz vəziyyətə saldığından Azərbaycanından kömək istəmiş və ölkəmiz bu köməyi etmişdir. Bayden-Blinken administrasiyası Əfqanıstan əməliyyatları başa çatan kimi nankorcasına "907-ci düzəliş"i yenidən canlandırmış, Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə etməyə çalışmışdır. D.Tramp isə Prezident İlham Əliyevlə şəxsi əlaqələrinin qurulması və inkişaf etdirilməsi üçün "907-ci düzəliş"i tamamilə ləğv olunması haqqında qərarı imzalamışdır.

Təbii ki, D.Tampın Azərbaycan-ABŞ əlaqələrinin inkişafında maraqlı olması və bölgədə sülhün təmin olunmasında prinsipiallıq göstərməsi təqdirəlayiqdir və alqışa layiqdir. Prezidentimiz İlham Əliyev də bu münasibəti və Trampın sülhə töhfə vermək cəhdlərini yüksək qiymətləndirərək onun Nobel Sülh mükafatına namizədliyinin irəli sürülməsi təşəbbüsü ilə də çıxış etdi. Birgə bəyanat zamanı bildirdi ki, bəlkə biz Baş nazir Paşinyan ilə razılaşarıq və Nobel mükafatının komitəsinə birgə təşəbbüs də irəli sürə bilərik. Cənab Tramp bu mükafata layiqdir: "Bəs əgər Nobel Sülh Mükafatı Prezident Trampa verilməsə, kimə verilməlidir? Mən heç bir iş görməmiş, lakin mükafat almış şəxslərlə bağlı Nobel Sülh Mükafatının çox müəmmalı qərarlarının tarixinə varmaq istəməzdim. Lakin Prezident Tramp altı ay ərzində möcüzə yaratdı. Bir sözlə, düşünürəm ki, erməni həmkarım da dəstəkləyəcək. Auditoriyanın reaksiyasından hesab edirəm ki, biz qayıdan kimi birgə məktubun hazırlanması üzərində razılığa gələcəyik". Diqqətçəkən məqam ondan ibarətdir ki, Prezident İlham Əliyevin təşəbbüsünə Nikol Paşinyan da dəstək verib. Paşinyan öz çıxışında ABŞ Prezidenti Trampın Nobel Sülh Mükafatına layiq olduğunu bildirdi.

## Zəngəzur dəhlizi mütləq açılacaq

Müharibə Azərbaycanın parlaq qələbəsi ilə başa çatdıqdan sonra Prezident İlham Əliyev dəfələrlə çıxışlarında, KİV-ə verdiyi müsahibələrində Naxçıvan Muxtar Respublikasını Azərbaycanın qərb rayonlarını birləşdirəcək Zəngəzur dəhlizinin açılacağını bəyan etmişdir. Prezidentimiz qeyd etdiyi daha bir məsələ öz həllini tapır. Vaşinqiton görüşündə Azərbaycanın tələbi də Ermənistan tərəfindən qəbul edildi. Belə ki, imzalanmış Birgə Bəyannamədə ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz gediş-gəliş təsdiq olunur. Beləliklə, Zəngəzur Dəhlizi reallaşır. Bununla bağlı Vaşinqtonda Zəngəzur Dəhlizinin işə düşməsi ilə əlaqədar ABŞ ilə Ermənistan arasında saziş imzalanmışdır. Prezident D.Tramp Zəngəzur Dəhlizinin qarantı rolunu oynayacaq. Bir sözlə görünən ondan ibarətdir ki, Azərbaycan Prezident İlham Əliyevin liderliyi ilə bütün hədəflərinə nail olur. 2020-ci il Vətən müharibəsi nəticəsində Azərbaycan öz torpaqlarını azad etdi və Ermənistanı kapitulyasiya aktı imzalamağa məcbur etdi. Sonra mövqelərini daha da möhkəmləndirən Azərbaycan bölgə də sülhün və təhlükəsizliyin təmin olunması üçün müvafiq şərtlərini açıqladı və Ermənistan bu şərtləri Vaşinqiton görüşün də qəbul etdi. Bundan sonra tam əminliklə demək olar ki, Azərbaycanı ancaq yeni-yeni uğurlar və qələbələr gözləyir.

## "Böyük Qayıdış Qarabağı regionun ən inkişaf etmiş mərkəzinə çevirəcək"

"Böyük Qayıdış prosesi Azərbaycanın müasir tarixində ən böyük sosial-iqtisadi reabilitasiya layihəsidir. Bu, sadəcə insanların öz doğma yurdlarına qayıtması deyil, həm də illərlə işğal altında qalmış torpaqların yenidən milli iqtisadi dövriyyəyə qaytarılmasıdır. Dövlətin bu istiqamətdə gördüyü işlərin miqyası, əslində, yeni şəhərlərin sıfırdan qurulmasına bərabərdir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib. Onun sözlərinə görə, işğaldan azad edilmiş ərazilərdə artıq yüzlərlə kilometr yeni yol çəkilib, Füzuli, Zəngilan və Laçında müasir hava limanları fəaliyyətə başlayıb. Elektrik enerjisi və su təchizatı xətləri bərpa olunur, "ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyaları əsasında yaşayış məntəqələri salınır: "Bu, yalnız infrastruktur layihəsi deyil - burada insanların rahat, təhlükəsiz və dayanıqlı şəkildə yaşaması üçün müasir urbanizasiya standartları tətbiq olunur.

Köç prosesi isə mərhələli şəkildə həyata keçirilir. İlk mərhələdə təhlükəsizlik tam təmin edilir, mina təmizləmə işləri başa çatdırılır, sosial obyektlər - məktəblər, xəstəxanalar, mədəniyyət mərkəzləri istifadəyə verilir. İkinci mərhələdə isə iqtisadi fəallığın artırılması üçün istehsal müəssisələri, kənd təsərrüfatı layihələri və turizm infrastrukturu qurulur. Bu qayıdış, sadəcə demoqrafik göstəricilərin bərpası deyil, həm də milli kimliyin, mədəni irsin və tarixi ədalətin bərpasıdır. İllərlə yurd həsrəti çəkmiş insanların evlərinə dönməsi, orada yenidən həyat qurması Azərbaycan dövlətinin gücünü, xalqının isə iradəsini nümayiş etdirir. Nəticədə Qarabağ və Şərqi Zəngəzur bölgəsi yaxın illərdə Cənubi Qafqazın ən inkişaf etmiş, ən sabit və ən perspektivli regionlarından birinə çevriləcək".

*Ziya Hikmətoğlu*

# Vaşinqton görüşləri: "Azərbaycan üçün geosiyasi və geoiqtisadi dönüş nöqtəsi"



"Avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyevin keçirdiyi görüşlər - həm ABŞ sabiq Prezidenti Donald Tramp ilə ikitərəfli formatda, həm də Ermənistanın Baş naziri Paşinyanla üçtərəfli formatda baş tutmuş görüşlər - ölkəmiz üçün iki əsas aspektdən mühüm əhəmiyyət kəsb edir". Bu barədə siyasi ekspert Sultan Zahidov SİA-ya açıqlamasında bildirib. Onun sözlərinə görə, bu səfər ilk növbədə Trampın Azərbaycan Prezidentini şəxsən dəvət etməsi ilə baş tutdu və bu, ABŞ-ın hazırkı geosiyasi reallıqlarda Azərbaycana verdiyi önəmin, eyni zamanda Azərbaycanın II Qarabağ zəfəri nəticəsində yaratdığı reallıqların qəbulunun göstəricisidir: "Bu, həm də Azərbaycanın uğurlu xarici siyasətinin və diplomatiyasının nəticəsidir".

Sultan Zahidov əlavə edib ki, səfər çərçivəsində ABŞ və Azərbaycan arasında strateji tərəfdaşlıq üzrə işçi qrup yaradıldı və qarşılıqlı Anlaşma Memorandumu imzalandı: "Prezident İlham Əliyevin də vurğuladığı kimi, bu sənəd ikitərəfli münasibətlərdə yeni bir səhifənin açıldığını göstərir. Çünki xüsusilə Bayden administrasiyası dövründə iki ölkə arasında münasibətlər gərgin olmuş, ABŞ-ın ermənipərəst mövqeyi və 907-ci düzəlişin yenidən bərpa olunması bu münasibətlərə mənfi təsir göstərmişdi. Lakin Trampın təşəbbüsü ilə bu düzəliş yenidən dayandırıldı və bu, Azərbaycan-ABŞ əlaqələrində yeni mərhələnin başlanğıcı oldu".



Ekspert vurğulayıb ki, keçirilən üçtərəfli görüşdə regionda sülh və sabitliyin təmin olunmasına yönəlmiş addımlar razılaşdırıldı: "Cənubi Qafqaz kimi münaqişələrlə dolu bir regionun sülh mərhələsinə qədəm qoyması, məhz II Qarabağ müharibəsində Azərbaycanın qazandığı qələbə və ərazi bütövlüyünün bərpası nəticəsində mümkün oldu. Bu zəfər təkcə Azərbaycanın deyil, Ermənistanın da geosiyasi yönünü dəyişdi. Ermənistan artıq Rusiyadan uzaqlaşaraq yeni təhlükəsizlik təminatları axtarır".

Sultan Zahidov bildirib ki, Vaşinqton görüşü əslində Azərbaycanın 2020-ci ildə başladığı və 2022-ci ildə sülh üçün təqdim etdiyi 5 prinsip əsasında irəliləyən sülh prosesinin məntiqi nəticəsidir: "Bu proses həm Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi, həm də bölgədə sülhə real zəmin yaratması ilə yadda qaldı".

O əlavə edib ki, bu nəticələri həzm edə bilməyən qüvvələr də mövcuddur: "Məsələn, İranın bəzi dairələri, xüsusilə hərbi qanadı, Zəngəzur dəhlizinə qarşı mənfi münasibət sərgiləyir. Onlar bu layihənin öz strateji maraqlarını zəiflədəcəyini düşünürlər. Amma reallıq ondan ibarətdir ki, Azərbaycan öz milli maraqları əsasında siyasət yürüdür və başqa dövlətlərin narahatlıqları ilə deyil, öz müstəqil mövqeyi ilə çıxış edir".

Ekspert Rusiyanın mövqeyinə də toxunub: "Rusiya tərəfdən də müəyyən narahatlıq ifadə olundu. Çünki ABŞ-ın Cənubi Qafqaza gəlməsi Rusiyanın regional təsir dairəsinə zərbə vurur. Lakin sual olunur: Rusiya bu vaxta qədər Qafqazda sülh üçün nə edib? Hansı münaqişəni həll edib? Azərbaycan bu reallıqları çox yaxşı dərk edir və artıq bölgədə sülhün və təhlükəsizliyin bərqərar olması üçün bütün imkanlarını səfərbər edib. Vaşinqton görüşü, bir sözlə, təkcə Azərbaycan üçün deyil, bütövlükdə Cənubi Qafqaz və Avrasiya regionu üçün mühüm geosiyasi və geoiqtisadi nəticələr vəd edir. Regionda sabitlik və inkişafın təmin olunması baxımından bu görüşün əhəmiyyəti böyükdür".

Sultan Zahidov əlavə edib ki, üçtərəfli razılaşmada yer alan əsas məqamlardan biri - Zəngəzur dəhlizinin açılması - təkcə Azərbaycanın Naxçıvanla əlaqəsinin bərpa etməsi demək deyil: "Bu dəhliz Türkiyəni, Avropanı, Mərkəzi Asiyanı və Çini birləşdirən geniş bir ticarət yolunun əsas halqası olacaq. Bu baxımdan Zəngəzur dəhlizinə yalnız lokal layihə kimi yox, Orta Dəhlizin strateji hissəsi kimi yanaşmaq lazımdır. Bu da onu göstərir ki, bu dəhlizdən təkcə Azərbaycan deyil, bütün region və Avrasiya iqtisadi məkanı faydalanacaq".

Ekspert vurğulayıb ki, hazırda əsas məsələ - Vaşinqtonda əldə olunan razılaşmaların praktiki mərhələyə keçməsidir: "Ermənistan öz konstitusiyasını dəyişdirməli, sülh sazişini imzalamağa hazır olmalıdır. Eyni zamanda Zəngəzur dəhlizi ilə bağlı texniki və siyasi işlər sürətlə davam etdirilməlidir ki, bu tarixi fürsət əldən verilməsin".

***Fatimə Əliyeva***

# "Gələcək üçün enerji texnologiyaları inkişaf edir"

"Enerji qənaəti və alternativ enerji növləri ölkənin inkişafı və ekoloji tarazlığın qorunması baxımından böyük əhəmiyyət kəsb edir. 2022-ci ildə bu mövzuda araşdırma aparmışam, bir sıra stansiyalara səfər etmişəm. Məlumatlarım həmin dövrə aiddir, lakin düşünmürəm ki, bu sahədə ciddi dəyişikliklər baş versin. Bildiyimə görə, ölkədə yeni stansiyalar tikilir, lakin hazırda onların cari vəziyyəti barədə ətraflı məlumatım yoxdur. Qarabağ bölgəsində tikilən stansiyalar barədə isə araşdırma aparmaq mümkün olmadı, çünki səfərimə icazə verilmədi. Yenə də orada ciddi enerji obyektlərinin qurulması davam edir və mən bu prosesləri izləyirəm".Bu sözləri SİA-ya açıqlamasında ekoloq Sevil Yüzbaşeva deyib.

Onun sözlərinə görə, bərpa olunan enerji mənbələri, həmçinin yaşıl enerji, insanların istifadəsi üçün təbii olaraq mövcud olan və tükənməz enerjidir: "Bu enerji mənbələri təbiətdə daim mövcuddur və insanların ehtiyaclarını ödəmək üçün istifadə olunur. Bir neçə bərpa olunan enerji növü mövcuddur: su enerjisi, günəş, külək, biokütlə, geotermal bulaqlar və geotermal energetika. Lakin ölkəmizdə bu mənbələrin hamısından istifadə olunmur. Dünya təcrübəsinə baxdıqda, 2019-2020-ci illərdə Avropada ümumi elektrik enerjisi istehsalında bərpa olunan enerjinin payı 35% olmuşdur. Çində bu göstərici 27%, Hindistanda 21%, ABŞ, Rusiya və Yaponiyada isə təxminən 18% təşkil etmişdir. Hazırda Avropanın ev təsərrüfatları və iş mərkəzləri əsasən günəş və külək enerjisindən istifadə edir, bəzi ölkələrdə isə enerji istehsalının 50%-dən çoxu bərpa olunan enerji mənbələrinə əsaslanır.



Son illərdə Azərbaycan hökuməti alternativ enerji mənbələrindən istifadəni genişləndirməyə, qiymətli yanacaqlara qənaət etməyə və ətraf mühitin qorunmasına xüsusi diqqət yetirir. "Yaşıl enerji" texnologiyaları dünyada sürətlə inkişaf edir və gələcəkdə ətraf mühit üçün zərərli olan atom elektrik stansiyalarını əvəz edə biləcək potensiala malikdir. Hazırda Azərbaycanda bərpa olunan enerji növlərinin bir neçə forması aktiv şəkildə istifadə olunur.

Azərbaycan Milli Elmlər Akademiyasının institutları və Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu tərəfindən hidrometeoroloji ölçmələr əsasında ölkədə bərpa olunan enerji mənbələrinin inkişaf xəritələri hazırlanmışdır. 2016-cı ildə külək enerjisi xəritəsi, 2017-ci ildə isə günəş enerjisi xəritəsi hazırlanmışdır. Hazırda ölkədə külək enerjisinin gücü 66,74 MVt olan 7 stansiya fəaliyyət göstərir və bunlardan biri hibrid stansiyadır. Günəş enerjisi sahəsində isə gücü 54,863 MVt olan 9 stansiya mövcuddur.

Azərbaycan hökuməti 2016-cı ildə Paris Sazişini imzalayaraq qlobal temperatur artımını Selsi şkalası ilə iki dərəcə səviyyəsində saxlamağa öhdəlik götürmüşdür. Bu öhdəliyə uyğun olaraq, 2030-cu ilə qədər istixana qazlarının emissiyalarını 35% azaltmaq hədəflənmişdir. Hazırda ölkəmizdə günəş və külək stansiyaları ən çox perspektivə malik enerji mənbələri hesab olunur. Xüsusilə günəş enerjisi stansiyalarının fermer təsərrüfatları və kənd təsərrüfatı obyektləri üçün istifadəyə verilməsi iqtisadiyyatın inkişafına ciddi təsir göstərə bilər. Bu, enerji qənaətinə, ekoloji balansın qorunmasına və kənd təsərrüfatı məhsuldarlığının artmasına imkan yaradar".

***Günel Fərzəliyeva***

# Teatr və konsert: hansına üstünlük veririk və nəyə görə?..

Teatr və konsert... Hər ikisi insanın asudə vaxtını gözəl və səmərəli şəkildə keçirməsi üçün vasitədir. Lakin bunların bir-birindən fərqli cəhətləri də var. Teatr həm öyrədir, həm əyləndirir, konsert isə yalnız əyləndirir. Müasir dövrümüzdə konsert seçimi teatr seçimindən dəfələrlə çoxdur. İndi teatrlar da konsertlər qədər çox tamaşaçı gözlədiyi halda, konsert zalları ağzınadək dolu olur və yaxud konsert üçün seçilən hər hansı məkanda necə deyərlər, iynə atsan, yerə düşmür. Konsertə meyilimiz qonşu dövlətlərin də diqqətini cəlb edib. Çox tez-tez şəhərimizə gələn müğənni qonaqlar və onların təntənəli qarşılanması, gedib bir də qayıtmaları həm dediklərimizi, həm də bir çox başqa məqamları təsdiq edir. Bəs bizim teatr sevgimizin də yerini konsertlərin almasının səbəbi nədir? Bu barədə danışaq...



## Çoxsaylı tamaşaçıya həsrət teatrlar...

Bizim üçün teatr nədir, ondan nə öyrənirik? Teatr oxuduğumuz bir əsərin qəhrəmanlarını canlı şəkildə təsəvvür edə bilməyimizdir. Dünənədək kitab vasitəsilə tanıdığımız qəhrəmanlarımız bir teatr tamaşasında gözümüzün qarşısındadır və bizə həmin kitabı oxuyarkən yaşadığımız hissləri canlı şəkildə yenidən təqdim edir. Teatr həm də haqqında məlumatımız olmayan bir hadisənin səhnə variantıdır. Bu zaman isə hər pərdə, hər səhnə dəyişdikcə ürək döyüntülərimiz də artır. Ona görə ki, hadisələrin necə sona çatacağı bizim üçün həddən artıq maraqlıdır...





Teatr... Səhnə işıqları-bəzən kölgəlik, bəzən qaranlıq, bəzən gur işıqlar, dəyişən səhnə dekorasiyaları... Bütün bunların fonunda istedadlı aktyorların yaratdığı obrazlar, mimika və jestlərlə qəhrəmanlarını olduğu kimi canlandıra bilmələri sanki adamı həmin dövrə aparır, o dövrün və hadisələrin qonağı olaraq nələrisə öyrənmiş olursan.

Teatr bir tarixdir, desək, yanılmarıq. Çünki ayrı-ayrı dövrlərin hadisələrini o qədər anlaşıqlı şəkildə açıqlayır ki, buna yalnız heyran qalmaq olur... Teatrların hər yeni tamaşası həm də bir kitabdır. Gedirsən teatra, tamaşa edirsən, 1,5-2 saat ərzində bir kitabı oxuyub başa çıxırsan. Teatrdan ayrıldıqda artıq bu gün nə isə öyrəndiyini anlayırsan. Teatrlarımızın da öz tamaşaçıları var. O tamaşaçılar ki, illərdir, teatr afişalarını izləyir, tamaşalara baxır. Necə deyərlər, həyatlarını teatrsız təsəvvür edə bilmir. Lakin etiraf etməliyik ki, teatrların tamaşaçıları konsertlərinki qədər deyil. Səbəb?



## Konsertə, yoxsa?..

Onu da etiraf edək ki, artıq illərdir ki, biz əsl dəyərlərimizi dəyənləndirə bilmirik. Sanki hansısa bir qüvvə bizimlə dəyərlərimiz arasında elə bir körpü yaradıb ki, ona doğru bu körpü ilə gedərkən yarıda qırılır, biz qalırıq bu tərəfdə, dəyərlərimiz isə o tərəfdə. Nəticədə isə qaldığımız yerdə yeni bir həyata başlayırıq. Bu həyat körpünün o tərəfindəki həyatdan çox fərqlənir. Burada haqqında danışdığımız teatr sevgisi azdır, əyləncə axtaranlar, bu əyləncəni sosial şəbəkələrdə paylaşanlar, özünü reklam edənlər, bununla sanki sosial ehtiyacının ödənildiyini anlayanlar daha çoxdur.

Elə bu səbəblərdən də müasir dövrdə konsert sevgisi teatr sevgisini üstələyir. Çünki artıq əksər insan öyrənməyə, biliyini artırmağa meylli deyil, əylənməyə meyllidir. İndi əksər insan, xüsusilə də gənc nəsil hayküyə səbəb olacaq hadisələr axtarır. Ona görə də şəhərimizdə tez-tez keçirilən konsertlərə axın-axın insan toplaşır. Onu da qeyd edək ki, biz nədənsə öz aktyor-müğənnilərimizi ya qiymətləndirmək, ya da bu barədə fikirləşmək istəmirik. Xarici müğənnilərə, nə bilim, psixoloqlara, varlanmağın yolunu bizə onunla görüşün bileti qiymətinə satanlara daha çox dəyər veririk. Bəs bunun səbəbi?

## Şöhrət xəstəliyi

Deməli, biz "şöhrət" adlı xəstəliyin illərdir ki, daşıyıcılarıyıq. Müalicə olunmağımızın yollarını kənardan nə qədər diktə etsələr də, lakin qulaqlarımıza pambıq tıxmışıq ki, eşitməyək, ya da elə bu, xəstəliyin əlamətidir ki, karlığımıza da səbəb olub. Nəticədə isə öz bildiyimiz yolla getməkdəyik. Bu yolda isə şöhrət xəstəliyi bizimlə birgə addımlayır.

Xeyli araşdırmadan sonra bu qənaətə gəlmişəm ki, biz konsertə nə üçün gedirik. Musiqi dinləməyəmi? Xeyr. Asudə vaxtımızı keçirməyəmi? Xeyr. Belədirsə əgər, o qədər xeyriyyə və ya bayram konsertləri olur ki, şəhərimizdə. Lakin bu tədbirlərdə pullu konsertlərdə olduğu qədər adam görmək mümkün deyil.

Biz o "ünlü" müğənnilərin konsertinə pul verib hələ aylar öncədən bilet alırıq ki, biletimizi sosial şəbəkələrdə paylaşaq. Konsertdən "şelfi" edək və ya fotolarımızı axın qarşısında, parıltılı işıqlar fonunda çəkib paylaşaq ki, baxın, görün, mən haradayam. Bax, məqsəd yalnız budur.

Bütün bunlarla isə konsert sevdasının yaratdığı şöhrət xəstəliyimizi bilənlərin əlinə güclü bir əsas vermişik. Onlar da ki, dayanmadan-durmadan xarici müğənnilərin konsertlərini təşkil edirlər. Əvvəlcədən sosial şəbəkələrdə reklamları gedən bu müğənnilərin konsertlərinə biletlərin qiyməti isə hamıya məlumdur: həm qapalı, həm açıq məkanda, həm qarşıda, həm arxada, həm yuxarıda, həm aşağıda... Gəlirlər, hər gün televiziya-radio və telefonlardan dəfələrlə dinlədiyimiz mahnıları başımızı aldadaraq fonoqramla "ifa" edirlər. Bizə qalan isə uzaqdan da olsa, səhnədə parıltılı, cəlbedici, bəzən yarıçılpaq paltarda həmin o sevdası ilə aylar öncədən xərc çəkib bilet aldığımız müğənninin o yana-bu yana getməsini seyr etmək və güclü "paylaşımlar" etmək olur.

## Bunun adına asudə vaxt deyirikmi?

Bəli, əsasən şənbə və bazar günlərinə təsadüf edən bu cür konsertlərin adını da asudə vaxt qoyuruq və halımızdan xeyli razı qalırıq ki, gözəl əyləndik. Lakin biz əslində bu konsertlərdə nə əylənirik, nə bir şey öyrənir, yeni nə isə görürük. Bizi məmnun edən yuxarıda da qeyd etdiyim kimi, "selfilər", fotolar, videolardır. Məhz elə bunların verdiyi əyləncəyə əylənmək, asudə vaxt deyirik.

Beləliklə, bizim teatr və konsert anlayışımız da ortaya çıxır. Teatrların ən əyləncəli məkan, asudə vaxtın ən yaxın dostu olduğunu bildiyimiz təqdirdə onu seçmirik, xaricdən gələn müğənnilərin konsertlərini, digər sahələrdən gələnlərin "ağılvermə" saatlarını baha qiymətə dinləyib, adını da qoyuruq istirahət.

Lakin onlara verdiyimiz dəyərdən bir qədər də öz aktyor və müğənnilərimizə ayırsaq, daha gözəl olmazmı?.. Bu, bizim üçün həm xeyli az vəsait hesabına başa gələr, həm də onlar da dəyər hiss etmiş olarlar. Axı "əvvəl evin içi, sonra çölü",- deyib yaxşı ki, bu günləri görməyən atalarımız...

***Mətanət Məmmədova***




# Avropa İttifaqının Ermənistandakı müşahidə missiyası: artıq getməyin zamanıdır

Avropa İttifaqının (Aİ) Ermənistandakı müşahidə missiyasının (EUMA) birtərəfli fəaliyyəti Azərbaycan ictimaiyyəti və rəsmi dairələrinin ciddi narazılığına səbəb olub. Bu missiya sülhə real töhfə vermək əvəzinə, regionda etimad mühitini zədələyən, birtərəfli mövqe nümayiş etdirən vasitəyə çevrilib. Halbuki sülh prosesinə həqiqi və konstruktiv dəstək göstərmək istəyən hər bir beynəlxalq aktor regionun daxili dinamizmini, real təhlükəsizlik ehtiyaclarını və iştirakçı ölkələrin suveren qərarlarını nəzərə almalıdır. Xarici müdaxilələrin deyil, daxili siyasi iradənin ön planda olduğu yeni mərhələdə bu cür missiyalara ehtiyac qalmır. Regionun gələcəyi artıq buradakı ölkələrin öz əllərindədir və dayanıqlı sülh də məhz yerli təşəbbüslər üzərində qurulmalıdır. Bu kontekstdə Avropa İttifaqının Ermənistandakı müşahidə missiyası artıq öz aktuallığını itirib. Missiyanın fəaliyyəti nə region ölkələrinin maraqlarına cavab verir, nə də sülh prosesinə töhfə verir. Əksinə, onun mövcudluğu bəzi hallarda gərginliyi artırır, qarşılıqlı etimada əsaslanan dialoqa kölgə salır. Xüsusilə də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın iştirakı ilə imzalanmış Birgə Bəyannamə fonunda regionda tamamilə yeni diplomatik mühit formalaşır. Bu reallıqlar daxilində Aİ-nin birtərəfli və siyasi maraqlarla yönəldilən missiyası nəinki gərəksiz, hətta prosesə mane olan faktora çevrilib. Bu səbəbdən missiyanın mandatının uzadılması və genişləndirilməsi sülhə deyil, siyasi təsir imkanlarının qorunmasına xidmət edir. Halbuki bu mərhələdə sülh yalnız region dövlətlərinin iradəsi və qarşılıqlı əməkdaşlıq prinsipləri ilə mümkündür.

Hər zaman Azərbaycan rəsmiləri və yerli media bu missiyanın sülh prosesinə töhfə vermək əvəzinə bölgədə gərginliyi artırdığını və Azərbaycanın maraqlarına zidd hərəkət etdiyini bildirirlər. Prezident İlham Əliyev Aİ missiyasının müddətinin uzadılmasının və tərkibinin genişləndirilməsinin Azərbaycanın razılığı olmadan həyata keçirildiyini qeyd edərək, bu addımın etimadı sarsıtdığını vurğulayıb. O, missiyanın fəaliyyətini "binokl diplomatiyası" adlandıraraq, onların davranışının siyasi mədəniyyət standartlarına uyğun olmadığını bildirib.

Azərbaycan Xarici İşlər Nazirliyi də Aİ-nin Ermənistandakı missiyasının fəaliyyətinə etiraz edərək, missiyanın ilkin razılaşdırılmış iki aylıq müddətdən sonra Azərbaycanın razılığı olmadan əhəmiyyətli dərəcədə uzadıldığını və daha çox müşahidəçi ilə genişləndirildiyini bəyan edib. Göründüyü kimi, Aİ-nin Ermənistandakı müşahidə missiyası əslində kəşfiyyat xarakteri daşıyır və Azərbaycanın razılığı olmadan fəaliyyət göstərir. Bu üzdəniraq missiya fəaliyyəti dövründə sülh prosesinə ancaq zərbə vurmaqla məşğul olub. Bölgədə sülh və sabitliyin təmininə deyil, əksinə, gərginliyin artırılmasına xidmət edib.

Nəticə etibarilə, Azərbaycan Aİ-nin Ermənistandakı müşahidə missiyasının fəaliyyətini sülh prosesinə maneə kimi qiymətləndirir və bu missiyanın fəaliyyətinə son qoyulmasının zəruriliyini vurğulayır.




Avropa İttifaqı nə qədər çalışsa da bölgədə formalaşmış reallıqları dəyişə bilməyəcək. Çünki geosiyasi proseslər onların istədiyi istiqamətdə inkişaf etmir. Bu regionda artıq yeni balanslar, yeni münasibətlər və yeni güc mərkəzləri yaranır.



Avropa İttifaqının Ermənistandakı müşahidə missiyası əslində Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə həyata keçirilən siyasi layihə idi. Bu missiyanın əsas məqsədi Aİ və ümumilikdə Qərbin Ermənistanda hərbi və siyasi mövcudluğunu gücləndirmək, bölgədə kəşfiyyat fəaliyyətləri aparmaq və Azərbaycan-Ermənistan münasibətlərini gərgin saxlamaqdan ibarət olub. Ancaq bu gün artıq regionda yeni reallıqlar formalaşıb. Həm Azərbaycan, həm də Ermənistan sülh gündəliyini qəbul edib və bu istiqamətdə konkret addımlar atılır. Belə bir şəraitdə Aİ missiyasının bölgədə fəaliyyəti nə əsaslandırıla, nə də zəruri hesab oluna bilər. Əksinə, bu missiyanın davam etdirilməsi sülh prosesinə müdaxilə və regiondakı sabitliyi pozmaq cəhdi kimi qiymətləndirilir. Ona görə də Aİ missiyası fəaliyyətini dayandırmalı və bu mərhələdə regiondan çəkilməlidir.

Regionda sülh və sabitliyin bərqərar olunması istiqamətində əsas dönüş nöqtəsi ABŞ-da Prezident Donald Trampın iştirakı ilə keçirilən tarixi görüş oldu. Bu görüşün nəticəsində imzalanan Birgə Bəyannamə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesini yeni mərhələyə keçirdi. Sənədin mahiyyəti ondan ibarətdir ki, artıq tərəflər siyasi iradə ortaya qoyur, real və qarşılıqlı qəbul edilə biləcək formatda sülhə yaxınlaşırlar.

Bu şəraitdə Avropa İttifaqının Ermənistandakı müşahidə missiyası kimi təşəbbüslər arxaik və ziddiyyətli görünür. Trampın vasitəçiliyi ilə əldə olunan razılaşma göstərdi ki, effektiv vasitəçilik neytral yanaşma və reallıqlara əsaslanmalıdır. Missiyaların və xarici təsirlərin məqsədi sülhü təşviq etməkdirsə, bu, yalnız prosesin iştirakçılarının suveren qərarlarına hörmət göstərilməklə mümkündür. Beləliklə, regionda yeni əməkdaşlıq mühiti formalaşarkən, destruktiv və siyasi maraqlara hesablanmış təşəbbüslərə yer qalmır.

***Şəmsiyyə Əliqızı***

# "Prosesin uğuru siyasi iradə və təhlükəsizlikdən asılıdır"

""Böyük Qayıdış" proqramının icrasında qarşıya çıxan əsas siyasi və təhlükəsizlik çağırışları çoxşaxəlidir". Bu barədə SİA-ya açıqlamasında politoloq Züriyə Qarayeva deyib. Onun sözlərinə görə, ən mühüm risklərdən biri azad edilmiş ərazilərin bərpası və məskunlaşdırılması prosesinin beynəlxalq hüquq çərçivəsində tam legitim şəkildə aparılması ilə bağlıdır: "Ermənistanın daxilində və xaricdə fəaliyyət göstərən revanşist dairələr bu prosesə qarşı siyasi və informasiya təzyiqləri göstərə, beynəlxalq mediada və təşkilatlarda Azərbaycana qarşı qərəzli narrativləri gücləndirə bilərlər. Bu səbəbdən diplomatik sahədə ardıcıl fəaliyyət, faktların hüquqi əsaslarla təqdim olunması və beynəlxalq ictimaiyyətin prosesin sülh və inkişaf yönümlü xarakterinə inandırılması vacibdir.



Təhlükəsizlik müstəvisində ən böyük çağırış minalar və digər partlamamış hərbi sursatların mövcudluğudur. Bu, həm məskunlaşma tempini ləngidir, həm də infrastrukturun bərpası işlərini çətinləşdirir. Bundan əlavə, sərhəd və təmas xəttinə yaxın ərazilərdə mümkün silahlı təxribatlar ehtimalı qalmaqdadır. Bu risklərə qarşı güclü sərhəd mühafizəsi, müasir müşahidə texnologiyalarının tətbiqi və antiterror tədbirlərinin davamlı həyata keçirilməsi tələb olunur.

Prosesin uzunmüddətli dayanıqlığını təmin etmək üçün bərpa olunan ərazilərdə iqtisadi fəallığın sürətli canlandırılması əsas prioritet olmalıdır. Kənd təsərrüfatı, sənaye, turizm və "yaşıl enerji" layihələrinin təşviqi yeni məskunlaşanların bölgədə qalmaq istəyini gücləndirəcək. Sosial infrastrukturun - təhsil, səhiyyə, mədəniyyət və kommunikasiya xidmətlərinin - yüksək standartlarla bərpası insan kapitalının formalaşmasına və əhali üçün həyat keyfiyyətinin yüksəlməsinə şərait yaradacaq.

Yerli icmaların idarəetmədə iştirakını təmin edən şəffaf və inklüziv idarəetmə modeli qurulmalıdır. Bu, həm dövlətlə vətəndaş arasında etimadı möhkəmləndirəcək, həm də layihənin davamlılığını artıracaq. Nəticə etibarilə, "Böyük Qayıdış" yalnız fiziki bərpa və köçürmə prosesi deyil, həm də strateji siyasi layihədir. Onun uğuru siyasi iradənin güclü qalması, təhlükəsizlik təminatlarının davamlılığı və sosial-iqtisadi inkişafın real nəticələr verməsi ilə ölçüləcək".

***Günel Fərzəliyeva***

# Xalçanın üstündən asılan silah

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Milax kəndində İrandan gəlmə olan rəhmətlik Nağı əmi ilə erməni zülmünün nəsib etdiyi yetimçiliklə böyüyən rəhmətlik Sara xalanın özlərinə əllərinin qabarı ilə qurduqları evlərində 5 qız, 1 oğlan övladı böyüyürdü. Onların bu yuvaları uzun illərə başa gəlmişdi. Çünki bu yuva quşun dimdiyində bir-bir daşıdığı saman çöpü misalı ilə qurulmuşdu. 6 uşaq, arxalarında ata-ana, heç bir köməyi olmayan bu insanların yuvalarını çiyinlərində daşıdıqlarını çay daşlarını su yerinə alın tərləri ilə qaraşdırdıqları palçıqla hər gün bir qarış ucaldan zəhmət əlləri qurmuşdu. Bu yoxsul yuvada ən bahalı əşya divara vurulmuş nimdaş, amma ana yadigarı xalçanın üstündən asılmış silah idi. Bu silahı Sara xala həyatı bahasına əldə etmişdi. Onu göz bəbəyi kimi qoruyurdu. Bu silahı bir azərbaycanlı qadının göz bəbəyi kimi qorumasına səbəb amillər var idi. Bu qeyrətli qadına həyatda yaşadıqları "sevdirmişdi" bu silahı. Onu hər gün yatağını açıb yatdığı yerdə - başının üstündə asmasının, o silahın yerinin dəyişilməz olmasının səbəbi vardı.



Dəfərlərlə bu ailənin ehtiyacı yaranmışdı, uşaqlardan ağır xəstələnəni olmuşdu, onu həyata qaytarmaq üçün pul lazım olmuşdu, lakin o silah həmin xalçanın üstündən endirilməmişdi, satılmamışdı. Çünki Sara xala öz varlığını o silahda görürdü. Bir tikə çörəyini o silaha görə rahat yeyirdi. Gecə səhərədək başının üstündən asılan o silaha görə gözünü yuma bilirdi.Uzun illər öncə - 10-11 yaşında köksünə sığıb özü ilə götürmüşdü o silahı. O zaman ki, bu balaca qızcığazın gözlərinin qarşısında gördükləri fonunda düşüncəsində qurtuluş yolu olmuşdu o silah. 10-11 yaşlı uşağın ömürlük psixoloji sarsıntısına çevrilmişdi o silah. Üstündən uzun illərin keçməsinə baxmayaraq hələ də Sara xalanı 10-11 yaşına bağlayan xatirə idi o silah. Onun düşüncəsini didib-parçalayan, bu qadını rahat buraxmayan, azad yaşamasına əngəl törədən, bir an görməsə, ölə biləcəyi anlamına gələn hisslər o silahda gizli idi...Sara xalanın həyat tarixçəsi barədə mənə Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində blokada ilə bağlı tədqiqat apararkən söhbət əsnasında arxivin əməkdaşı Zülfiyyə xanım danışmışdı. Sara xala Zülfiyyə xanımın həyat yoldaşının nənəsi imiş. Onlar uzun illər bir yerdə yaşayıblar. Zülfiyyə xanım bu qadının gəlini hesab olunub. Ona elə öz anası kimi də qayğı göstərib. Yaşlı vaxtlarında onu yuyundurub. Zülfiyyə xanım Sara xalanın bədənində çoxlu güllə yerləri gördüyünü deyir. Məlum olur ki......"Ananın bəxti qızına taxtdır", - deyirlər. Sara xalanın da taleyinə erməni xislətinin hər üzünü görən anasının bəxti taxt olmuşdu.

Ömrünün ayrı-ayrı dönəmlərində bir neçə dəfə erməni zülmü ilə qarşılaşmış, son mənzilinə də elə bu dünyadan bir ürək dolu erməni dağı-düyünü apardı bu qadın. Sara xalanın anasıgil 1905-1907-ci illərdə qədim Zəngəzur mahalından ermənilər tərəfindən öz yurd-yuvalarından didərgin salınaraq Naxçıvana pənah gətirən ailələrdən birinin övladı olub. Lakin sən demə, bu ailələrin Naxçıvanda rahat yaşaması cəmi 9-10 il çəkəcəkmiş. Burada da ermənilər onların dincliyini pozacaq, öz əzəli Zəngəzur torpaqlarında olduğu kimu, burada-Naxçıvanda da onların rahat, sakit həyatının qəniminə çevriləcəkdilər. Və o zaman cəmi 10-11 yaşlarında olan Sara xalanın gözlərinin önündəcə dəhşətlər, faciələr yaşanacaqmış.1916-1918-ci illərdə necə ki, soydaşlarımız Ermənistandan-əzəli torpaqlarımızdan didərgin salınırdılar, həmin proses Naxçıvanda da davam etdirilirdi. Burada yaşayan ermənilər də soyqırımlar törədir, insanların qanını içirdilər. Culfanın Milax kəndində yaşayan insanlar da həmin dövrün erməni zülmünə məruz qalanlardan olmuşlar. O vaxt balaca Sara həmin faciələr içərisində tək-tük qalan, alnına "hələ yaşamalısan" sözləri yazılan insanlardan olubmuş. Erməni vəhşətindən canlarını götürüb Milax yaxınlığındakı mağaralara üz tutan insanlar qanın içərisində oraya çatıbmışlar. Saranın da bədəni güllə mərmilərindən xeyli sayda yaralar alsa da, lakin tab gətirə bilibmiş, o, yaşayıbmış.

Bəlkə də təsadüfi bir hadisə baş verməsəydi, o da mağarada ölən yüzlərlə insandan biri olacaqdı. Bu balaca qızcığaz günlərlə o mağarada ac, susuz qalmışdır. Anasının yanında oturub, onu yatmış hesab edən Sara "ana yatma, dur, dur, gedək evimizə. Niyə mənə cavab vermisən?", - deməsinə baxmayaraq anası hələ də uyuyurmuş. Sara belə düşünürmüş ki, anası yatıb, yorğunluqdan yuxudan ayıla bilmir. Axı onlar zalım ermənilərin zülmü ilə dağdərə dolaşmışdılar, axır bu mağaraya sığınmışdılar. Həmin vaxt Saranın sığındığı anasının susmuş cənazəsi, bir də mağarada həyatını itirmiş insanların birinin yanından götürüb sinəsinə sıxdığı həmin silah olmuşdu. O, nə anasının yanından uzaq dururdu, nə də ki, sinəsindəki silahı yerı qoyurdu. Onu gözü qarşısında törədilən bu faciələrin fonunda yaşadan, həyata bağlayan tək anasının hələ də yatdığını hesab edən düşüncələri, bir də həm özünü, həm də mağarada qanaxmadan dünyasını dəyişmiş və ağrıdan zarıyan yüzlərlə yaralı insanın xilasını gördüyü, sinəsinə sıxdığı silah idi. Ermənilərin bir yandan, yerli əhalidən sağ qalanların isə bir yandan axtardığı didərgin insanlar əksəriyyəti artıq dünyalarını dəyişmişdilər. Sara isə axşamüstünün toranında qorxa-qorxa mağaradan çıxıb yaxınlıqda su tapmaq, anasına gətirmək, "bəlkə su içirsəm oyanar", - düşüncəsi ilə bayıra çıxanda onu kənlilərindən biri görür. Sara ilə mağaraya qayıdır, buradakı fəlakəti görür. Kəndə xəbər aparır, gecə ilə gəlib insanları buradan daşıyıb dəfn edirlər, yaralıları evlərdə gizlədirlər. Qohumlarının əksəriyyətini itirən Saranı isə günlərdir ana-bacısını axtaran, bacısından cəmi iki yaş böyük olan qardaşı Qəzənfərə verirlər.

***

Tarixin bütün dönəmlərində düşməni yerində oturtmağı bacaran naxçıvanlılar bu dəfə də düşmənə qarşı mübarizə aparmışlar. İtkiləri, yaralıları, dağılan evləri-eşikləri saysız şəkildə olsa da, kəndlərini tərk etməmiş, orada qapılarının ağzına yerləşdirilmiş ermənilərlə yenə də birlikdə yaşamışlar. Dəfələrlə törədilən belə hadisələr, torpaqsız ermənilərin fitnə-fəsadı dözülməz olsa da, sovet imperiyasının həyata keçirdiyi Pyotrdanqalma siyasətin mahiyyəti məhz belə idi: ermənilər Azərbaycan torpaqlarına yerləşdirilməli, onlarla birlikdə yaşamalı, zaman gəldikdə isə azərbaycanlılara qarşı torpaq iddialarında olmalı, "bura bizimdir, çıxın buradan", - deməli, qan tökməli idilər. Tarixə nəzər salsaq, XIX əsrdə haradan gətirildikləri bilinməyən bu nankor tayfanın torpaqlarımıza yerləşdirilməsi ilə hər 10-15 ildən bir belə soyqırımlarla qarşılaşa bilirik. Tək Naxçıvanda yox, Azərbaycanımızın digər bölgələrində də zaman-zaman minlərlə azərbaycanlı qətlə yetirilmiş, evləri talan edilərək yurd-yuvasından didərgin salınmışlar. 1918-ci ilin mart-aprel aylarında Bakı, Şamaxı, Quba, Lənkəran və digər ərazilərdə erməni qəddarları 50 min azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşdular. Təkcə Bakıda 14 min, Zəngəzur qəzasında 3257 kişi, 2276 qadın, 2196 uşaq öldürülmüşdü. 1061 kişi, 799 qadın, 485 uşaq yaralanmışdı. Umumi yaralananların sayı 10 min 68 nəfərə çatmışdı.1992-ci ildə növbəti dəhşətli soyqırım aktı isə Xocalıda törədildi. İnsanlar qışın bıcaq kimi kəsdiyi 26 fevral gecəsində dağlara üz tutdular. Güllələndilər, səpələndilər düzlərə.Gözləri qandan doymayan düşmən ölənlərin cənazəsinə qarşı vəhşilik törətdi: əlləri, ayaqları kəsildi, gözləri çıxarıldı, dəriləri soyuldu.Azərbaycan müstəqilliyini bərpa edib dövlətçilik ənənələrinə yenidən qayıtdıqdan sonra öz tarixi keçmişinə siyasi qiymət vermək istiqamətində də bir sıra addımlar atmışdır.

Bu sahədə ümummilli liderimiz Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. 1998-ci il 26 mart tarixli "31 mart Azərbaycanlıların Soyqırımı haqqında" Fərmanı azərbaycanlılara qarşı 1918-ci il mart hadisələri zamanı törədilmiş vəhşiliklərin üzə çıxarılmasında mühüm rol oynamışdır. Eyni zamanda baş vermiş hadisələrə həqiqi qiymətin verilməsində mühüm siyasi, hüquqi və tarixi sənəddir. Bu sənədlə ilk dəfə olaraq XX əsrdə mərhələlərlə 1905-1907, 1918-1920, 1948-1953, 1988-1993-cü illərdə azərbaycanlılara qarşı həyata keçirilmiş qırğınların rəsmi olaraq xronikası qeyd edilir və bütün Cənubi Qafqazda azərbaycanlı əhaliyə qarşı etnik düşmənçilik siyasətinin kökləri göstərilir.

***

Həmin müdhiş hadisənin baş verdiyi günlər Milax kəndində yüzlərlə insanın həyatına son qoyduğu kimi, Qəzənfərlə bacısı Saranın da uşaqlığına son qoydu. Onlar bu hadisələrdə uşaqlıqlarını itirdilər. Həmin gündən Saranın əlindən oyuncaqları alındı, əvəzinə mahiyyətini belə dərk etmədiyi, lakin özünü müdafiə edə biləcəyini düşündüyü həmin o silah verildi. O silah ki, Sara ölənədək yatağını xalçanın üzərindən asılan o silahın altında açdı. Həmin gündən Qəzənfər Saraya ata, Sara isə Qəzənfərə ana oldu. Bacı-qardaş idilər, dost da oldular. Onlar dərd ortağına çevrildilər. Qəzənfər günlərlə bacısının bədənindəki güllə yaralarının sağalması ilə məşğul oldu. Kənddəki türkəçarəçi Fatma nənənin dağların-düzlərin gülündən-çiçəyindən hazırladığı məlhəmlər Saranın həyatını xilas etdi. Bu balaca qız çox əziyyətlər çəksə də, günlərlə iniltisi kasıb komalarını ağzına alsa da, yaraları irinləyib onu istilik içərisində gözü qarşısında öldürülən anasının itkisi kimi yandırsa da, dözdü Sara, çünki yaşamalı idi, ona "öl" hökmü verilməmişdi. Bədənindəki yaralar bu körpəni uzun zaman incitsə də, yaşadı...Zaman keçir. Bəzən onu tutub saxlamaq ən böyük istəyimiz olsa da, o, ötür, ötməlidir də. O dayanmır, irəliləyir. Bizi də öz qanunlarına tabe etdirərək irəliləyir. Zaman Qəzənfərlə Saranı da öz axarı ilə böyüdüb gənc bir oğlana və qıza çevirmişdi. Qəzənfər evlənmişdi. Sara o vaxtlar qonşuluqdakı İrandan kəndə gələn Nağı ilə ailə qurdu. Nağı da ta Vətəninə qayıtmadı.

Onlar burada özlərinə yuva qurdular. Özlərinə bir otaq tikənədək Qəzənfərin yanında qaldılar. Sonra öz yuvalarına köçdülər. Saranın qurduğu yuvasına ilk zinəti anasından-qalma köhnə xalçanı otağının divarına vurması, üstündən də o silahıözü ilə bərabər o dəhşətli hadisəyə şahid silahı həmin xalçanın üstündən asması oldu. Bu ər-arvadın hər il bir qədər genişləndirdikləri evləri 6-8 il ərzində böyük bir ailənin yuvasına çevrildi. Onların 5 qız, 1 oğlanları dünyaya gəldi. Qızları doğulduqca Sara silahına daha çox bağlanırdı, onu göz bəbəyi kimi qoruyurdu. Dəfələrlə qohum-qonşuları o silahı istəmişdilər, satmasını təklif etmişdilər. Lakin o buna razı olmamışdı. Hətta bu sözü danışmağı birdəfəlik qadağan etmişdi onlara. Hər kəsə qəlbini-sirrini açmayan bu qadın o silahı dünənədək özü, ailəsi üçün qorumuşdursa, artıq o silah onun 5 qızının namusunun qoruqçusu idi.

*Ardı Səh. 15*

Əvvəli Səh. 14

# Xalçanın üstündən asılan silah

Sara xalçanın üstündən asılan silahı o günə saxlayırdı ki, 11 yaşında qarşılaşdığı hadisə ilə bir daha qarşılaşarsa, öz əlləri ilə qızlarını öldürəcəkdi, onların düşmənin əlinə keçməsinə izn verməyəcəkdi. O silah bir həyatın keşməkeşlərindən keçən Saranın simasında bütün azərbaycanlı qadınların məfkurəsi, namusunu, mənliyini düşməndən qorumaq, müdafiəsi idi. Sara kimi minlərlə qadınlarımız öz əlləri ilə qızlarını boğub öldürərdilər, lakin düşmənin əlinə keçməsinə razı olmazdılar. Həyatın, taleyin Saraya bəxş etdiyi 5 qız övladının da xilası onun özünün illərdən bəri böyük bir psixoloji qorxu içərisində yaşadığı günlərdə ümidi olan həmin silah idi...

İllər ötürdü... Sara xalanın xalça üzərində ağır-əziz tutduğu silah elə oradanca asılı qalmaqda idi. Çünki hələ ki, ermənilər yerlərində oturdulmuşdular. Sara xalanın qızları isə bir-birinin ardınca öz yuvalarına uçurdular. Oğlunu da evləndirmişdi, gəlinini də gətirmişdi. Lakin həmin silaha əl dəyməmişdi: o yerindəcə asılı qalmışdı... Sara xala isə hələ də yatağını o silahın altında açırdı. O silahın altında, o yatağın içərisində Sara xala qocalıb ahıllıq yaşına çatmışdı. Bəlkə bu da bir alın yazısı imiş ki, Sara xala 1918-ci ildən düz 70 il sonra - 1988-ci ildə yenidən ermənilərin torpaq iddialarının, düşmənin dəyişməz xislətinin yenidən şahidi olacaqmış. Sara xala o illər hər dəfə sərhədlərimizdə baş verən hadisələri eşitdikcə illər öncəyə qayıdır, başlarına gətirilən hadisələri bir-bir xatırlayır və dərin bir köks ötürürdü. Bəlkə də Sara xala hələ uzun illər yaşayacaqdı, 88-90-cı illərin hadisələri olmasaydı. Kim bilir, bəlkə də onun ömrünü elə uşaqlıqdan içinə sığdırdığı müdhiş bir qorxu qurd kimi gəmirməyə başlamışdı. Onun birdənbirə yatağa düşməsi içinə gömdüyü bu qorxu deyildimi?..

***

1988-ci ildən başlayaraq Azərbaycan yenidən ağır günlərini yaşamağa başladı. Naxçıvan 1989-cu ildən başlayaraq ermənilər tərəfindən dəmiryolunun dayandırılması ilə qısalı-uzunlu zaman kəsikləri ilə blokadaya alınırdı. Bunun ardınca ərazilərindən keçərək Naxçıvana gələn elektrik enerjisinin, qaz xəttinin dağıdılması ilə təbii qaz, elektrik enerjisi tamamilə dayandırıldı. Artıq 1991-ci ilə - Sara xalanın ömrünün son günlərinədək Naxçıvan tamamilə blokadaya alınmışdı. Həmin ağır illərdə bu yaşlı qadının nazını çəkmək onun hər bir övladının, nəvələrinin üzərinə düşürdü. Zülfiyyə xanım da yoldaşının nənəsinin qayğısını çəkənlərdən olub. O zaman kəndlərimiz daha şəraitsiz şəraitdə olduğu üçün Zülfiyyə xanımgil Sara xalanı Naxçıvan şəhərindəki evlərinə gətirmişdilər. Lakin günlər ötdükcə şəhərdə vəziyyət kənddən də ağır olurdu...Zülfiyyə xanım o günləri göz yaşları ilə xatırlayır: uşaqlar balaca idi, yoldaşım işə gedidi. Qayınatam, qayınanam yaşlı idilər. Sara xala da ki, xəstə yataqda. Çörək dalınca mən getməli olurdum. Elə olurdu ki, evdən o başdan - saat 6-da çıxırdım, günorta - nahar vaxtına ancaq evə gəlib çatırdım. Növbədə olan insan sırasının ucu-bucağı yox idi. Kəndlərdən də camaat axışıb çörək almaq üçün şəhərə gəlirdilər. Çünki kəndlərdə təndir salıb çörək bişirmək mümkün deyildi. O mənada ki, nə satışda un var idi, nə də kəndlərdə bir təndiri isidib çörək bişirmək vəziyyətinə gətirmək üçün yanacaq. Buna görə də əli qoynunda qalmışdı insanların. Nə edəcəklərini bilmirdilər. Çörək alıb qayıdırdım evə. Baxırdım ki, əl yumağa bir ovuc su yoxdur. Vedrələri götürüb gedirdim çeşməyə. Bəlkə 10 dəfə, 15 dəfə gedib-gəlirdim. Həmişə blokadanın o ağır illərini xatırlayanda məni düşündürən bir məsələ olur - o illərin qış fəsli. İlahi, adam dəhşətə gəlir o qışları xatırlayanda. Bilmirəm, necə izah edim, təsvir edim o qışları. O qədər də qar yağardımı, şaxta olardımı? Həqiqətən də son illər iqlim dəyişikliyi baş verib. İndi kimə 90-cı illərin qışı haqqında danışsaq, vallah inanmazlar.

Çünki son illər qış ayları çox mülayim keçir. Ancaq o illərdə küçələrdə 15-20 santimetr buzun üzərində hərəkət edirdik. Evlərin şiferlərindən buz baltaları sallanırdı. Elə ki, noyabr girdi, bir dəfə qar yağdı, vəssalam, həyat dayanırdı, düz marta qədər. Bütün su, kanalizasiya sistemi donurdu. İnsanlar, xüsusilə də qadınlar olmazın çətinlikləri ilə üzləşməli olurdular. Daşıdığımız suları evdə işlədəndən sonra onları bir də vedrə-vedrə bayıra daşıyırdıq. Su daşıyanda əllərim donub hissiyatını itirirdi. Evə gəlirdim, bir isti yox idi ki, əlini tutub isidəsən. Məcbur əllərini qoynuna qoyurdun. Düz bir saata donu açılırdı. Evlər də buz kimi idi. Daimi yanar yox idi. Bu gün tapdınsa bir şey, yanacaqdı, tapmadınsa, soyuqda oturmağa məhkim idin. Əvvəllər odun, çör-çöp tapıb sobanı alışdırırdıq. Sonrakı qışlarda artıq o da qalmamışdı. Çünki insanlar hamısı soyuqla mübarizə aparırdılar. Sonrakı illər camaata neft, salyarka normaları verilməyə başlandı. Allahım, o növbələri xatırlamaq nə qədər dəhşətlidir. Saatlarla talon əlində soyuq havada, ayaq üstündə dayanmalı idin ki, 5-10 litr yanacaq ala biləsən. Yaxşı aldın, bunu maşınkada yandırıb yemək hazırlayasan, sobada yandırıb evi isidəsən?.. Bax o norma ilə bunun hansını etmək isə bir başqa dərd idi.Sonralar artıq mağazalarda baha qiymətə olsa da, un tapılırdı. Elektrik xətləri o qədər yüklənirdi ki, bir də görürdün ki, axşamdan yüksəkgərginlikli xətlərdə qəza baş verib, səhərə qədər təmir edilməyib.

Deməli, həmin gün mağazalarda çörək də olmayacaqdı. Məcbur qalıb, həyətdə sacda çörək bişirməli olurduq. Bu mənim üçün çox ağır idi. Çünki köməyim yox idi. Böyük oğlum nə qədər əziyyət çəkdiyimi görürdü. Bir gün sacın başında kündələri bir-bir açıb bişirərkən, oğlum gəldi, bir xeyli baxandan sonra qalxıb evə getdi. Bir azdan Əlində bir adyalla qayıtdı. Həmin adyalı çəpər qonşumuz səmtə ağacların budaqlarına bağladı, dedi ki, ana, qoy heç kim görməsin, sənə kömək edəcəm. Həmin gündən sonra o mənim köməkçimə çevrildi. Mən açdım, o sacın üstündə bişirdi. İşim xeyli yüngülləşdi.

O günlərin hansını deyəsən, hansını saxlayasan axı. Dərd bir idi, iki idi? Ətrafda problemli olmayan heç nə yox idi Getsin o günlər, bir də dönməsin, Allah bizlərə o günləri bir də nəsib eləməsin.

***

Beləcə, Zülfiyyə xanım bu qədər ailə qayğıları mənqənəsində uzaq məsafədən su daşıyıb, onu min əziyyətlə qızdırıb Sara xalanı yuyunduranda görmüşdü onun bədənindəki güllə yaralarını. Elə bu yaralar da onun Sara xaladan dinlədiyi bir həyat hekayəsinin başlanğıcı olmuşdur ki, Zülfiyyə xanımla ani bir söhbətim zamanı bu həyat hekayəsi yenidən çözülərək qəhrəman bir azərbaycanlı qadının timsalında erməni xislətinin yeni bir səhifəsi ilə tanışlığıma vəsilə oldu. Unudulmayacaq bir səhifə... Bu yazı vasitəsilə gənc nəsillərə çatdırılacaq, onları əsla dəyişilməyən erməni xislətinə hər zaman hazırlıqlı olmağa çağıran bir səhifə... Sara xalanın xalçasının üstündən asdığı silahın mahiyyəti ruhumuza hopmalıdır. Onu məhz anasının əlləri ilə ilmə-ilmə toxuduğu xalçanın üstündən asmasının, bir ömür gözünün önündə saxlamasının, yatağını o xalçanın və o silahın altında açmasının səbəblərini ruhumuza yazmalıyıq. Axıdılan qanların, ömrü yarımçıq qalmış uşaqların, həyatına didərginlik, köçkünlük yazılmış soydaşlarımızın, arzuları torpağa kömülən şəhidlərimizin, evində, həyətində gündəlik həyatını yaşayan, işi-gücü ilə məşğul olan günahsiz insanların qətliamını, zaman-zaman Azərbaycanımızdan qoparılan Vətənə həsət torpaqlarımızın nələsi həkk olunmalıdır məfkurəmizə... Unutmamalıyıq, unutmağa haqqımız yoxdur...

***Mətanət Məmmədova***

# "Zəngəzur dəhlizi (Tramp yolu) regionun yeni geosiyasi mərhələsini başlayır"

"Zəngəzur dəhlizi (Tramp yolu) layihəsinin reallaşması təkcə regionun nəqliyyat və logistika xəritəsini dəyişmir, eyni zamanda geosiyasi qüvvələr balansında da yeni mərhələ açır. ABŞ- prezidenti Donald Trampın bu prosesdə oynadığı vasitəçilik və təşəbbüskarlıq rolu, onun Nobel Sülh Mükafatına layiq namizəd kimi təqdim olunmasını əsaslandırır. Çünki Tramp regionda illərdir mövcud olan münaqişə risklərinin azalmasına, sülh gündəliyinin möhkəmlənməsinə və iqtisadi inteqrasiyanın genişlənməsinə real töhfə verib". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Aydın Quliyev deyib.Onun sözlərinə görə, digər mühüm məsələ Avropa İttifaqının Ermənistandakı missiyasının faktiki iflasa uğramasıdır. Bu missiya, əslində, Fransa prezidenti Emmanuel Makronun layihəsi kimi ortaya çıxmış və Qərbin Ermənistanda hərbi-kəşfiyyat mövcudluğunu gücləndirmək məqsədini daşıyırdı: "Lakin Azərbaycan və Ermənistan rəhbərliyi tərəfindən qəbul edilən sülh gündəliyi bu missiyanı mənasız etdi. Bu gün regionda sabitlik üçün real zəmanət daşıyan əsas faktor Zəngəzur dəhlizi (Tramp yolu) kimi strateji layihələrdir, Aİ missiyasının isə nə siyasi, nə də təhlükəsizlik baxımından faydası qalmayıb.Rusiyanın Azərbaycana qarşı tarixi və indiki düşmənçilik siyasəti ayrıca qeyd olunmalıdır. 20 Yanvar faciəsindən başlayaraq Xocalı soyqırımı, torpaqlarımızın işğalı, Ermənistanın hərbi dəstəklənməsi və 30 il ərzində işğal rejiminin qorunması - bütün bunlar Moskvanın məqsədli siyasətinin tərkib hissəsi olub. Hətta bu gün də Rusiya mediasında aparılan anti-Azərbaycan kampaniyası, Yekaterinburq hadisələri, Ukrayna müharibəsi zamanı enerji infrastrukturumuza qarşı təhdidlər bu düşmənçiliyin davam etdiyini göstərir.








Tarixə baxdıqda isə xanlıqlar dövründə Gəncə, Qarabağ və Lənkəran xanlıqlarının işğalı, İbrahim Xəlil xanın qətlə yetirilməsi və ermənilərin torpaqlarımıza köçürülməsi bu siyasətin köklərinin nə qədər dərin olduğunu sübut edir.İran məsələsinə gəldikdə isə, prezident Məsud Pezeşkianın müsbət mövqeyi və region ölkələri ilə normal münasibətlər qurmaq istəyi ümidverici görünür.

Amma İran daxilindəki radikal dini dairələr və fars şovinist qüvvələr bu siyasətin qarşısını almağa çalışır. Onların yaratdığı korrupsiya, sosial ədalətsizlik, iqtisadi gerilik və beynəlxalq təcrid vəziyyəti İrana ən çox ziyan vuran faktorlardır. Son hadisələr də göstərdi ki, bu qüvvələr nə real hərbi gücə, nə də etibarlı təhlükəsizlik sisteminə sahibdir.Bütün bu faktorları birlikdə təhlil etdikdə, aydın olur ki, regionun gələcəyi üçün əsas strateji istiqamət sülh gündəliyinin qorunması, Zəngəzur dəhlizi (Tramp yolu) kimi layihələrin həyata keçirilməsi və xarici güclərin destruktiv siyasətinə qarşı vahid mövqenin formalaşdırılmasıdır".

***Ziya Hikmətoğlu***

SON SƏHİFƏ

SƏS

14 avqust 2025-ci il

# Qız uşaqları daha tez doğulur?



*HƏKİM AÇIQLADI*

"Demoqrafiyada "təbii seçmə" anlayışı mövcuddur. Bu, təbii şəraitdə doğulan oğlan və qız uşaqlarının nisbətinin müəyyən qanunauyğunluq əsasında formalaşmasını ifadə edir. Ümumiyyətlə, bir çox ölkələrdə doğulan oğlan uşaqlarının sayı qız uşaqlarının sayından bir qədər çox olur. Bu, insan nəslinin davamlılığını təmin edən təbii balans mexanizmi ilə bağlıdır". Bu sözləri SİA-ya açıqlamasında ixtisaslaşmış həkim, mama-ginekoloq Nailə Əzizova deyib. Nailə Əzizova sözlərinə belə davam edib: "Tarixi müşahidələr göstərir ki, bioloji davamlılıq baxımından hər iki cinsin mövcudluğu zəruridir. Lakin bəzi sosial və mədəni meyillər nəticəsində bu nisbət pozula bilər. Son illərdə tibbi texnologiyaların, xüsusilə də erkən dövrdə aparılan ultrasəs müayinələrinin yayılması, dölün cinsiyyətinin hamiləliyin ilk mərhələlərində müəyyənləşdirilməsinə imkan verir. Nəticədə bəzi ailələrdə cinsiyyətə görə selektiv abort hallarına rast gəlinir.

Bu proses adətən oğlan uşaqlarına üstünlük verilməsi istiqamətində həyata keçirilir ki, bu da təbii seçmə mexanizmini pozur. Azərbaycanda da oxşar tendensiya müşahidə edilir. Mövcud qanunvericilik hamiləliyin 12-ci həftəsindən sonra cinsiyyətə görə abortun qarşısını almağa yönəlmişdir. Hətta ultrasəs müayinəsi zamanı dölün cinsiyyətinin valideynlərə açıqlanması qanunla məhdudlaşdırılır və tibbi sənədlərdə cinsiyyət qrafası göstərilmir. Cins nisbətinin pozulması uzunmüddətli demoqrafik nəticələr doğurur. Qız uşaqlarının sayının azalması, gələcəkdə ailə qurma imkanlarının daralmasına, əhali artım tempinin zəifləməsinə və ümumilikdə demoqrafik tarazlığın pozulmasına səbəb ola bilər. Bu baxımdan selektiv abort hallarının qarşısının alınması milli təhlükəsizlik və sosial sabitlik üçün vacib hesab olunur".



*Ayşən Vəli*


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressalnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## İrem Derici yenə ərə gedir...



Türkiyəli məşhur müğənni İrem Derici ikinci dəfə ailə qurur. Sevgilisi dicey Melih Kunukçu dostlarının toyunda ifaçıya evlilik təklifi edib. İrem ona "Hə" cavabını verib. Qeyd edək ki, cütlük fevraldan eşq yaşayır.

## TƏBRİK EDİRİK!





Gülnarə xanımı ad günü münasibətilə İradə Əlili, Vəsilə Əhmədova, Gülarə Munis, Elnarə Mahmudova, Aytən Cəlilova ürəkdən təbrik edir, ona uzun ömür, sağlam və xoşbəxtlik dolu gözəl illər yaşamağı arzu edirlər.

## Azərbaycanda qadın avtobus sürücülərinin sayı artırılır



İctimai nəqliyyatda qadın sürücülərin iştirakını artırmaq məqsədilə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) yeni təlim proqramına start verib. Proqram çərçivəsində namizədlər avtobus sürücüsü kimi peşəkar fəaliyyətə başlamaq üçün nəzəri və praktiki cəhətdən hazırlıq keçirlər. Bu barədə AYNA-dan bildirilib. Məlumata görə, təlimlər sürücülük bacarıqları ilə yanaşı, etik davranış, ünsiyyət mədəniyyəti və təhlükəsizlik mövzularını əhatə edir. Əlilliyi olan şəxslərlə düzgün davranış qaydaları da xüsusilə aşılanır. Məqsəd yol hərəkətinin təhlükəsizliyini təmin edən, sərnişinlərlə düzgün və nəzakətli davranan, böhran vəziyyətlərdə peşəkarlıq nümayiş etdirən qadın sürücülər hazırlamaqdır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000